

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP İdarə Heyətinin iclası keçirilib




7


SƏS

№ 206 (7131)

7 noyabr 2024-cü il.
Qiymәti 60 qәpik


# Türk dünyasını birləşdirən siyasi güc!



2

**Prezident İlham Əliyev: "Azərbaycan TDT-nin möhkəmlənməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək"**

# Tramp 47-cidir

## ...Yaxud, qalibi bəlli olan seçki



3

## Dünyanın gözündə LƏNKƏRAN



10

## Qlobal istiləşmə: bizi yaxşı heç nə gözləmir



12

## Natiq Cəfərli Əli Kərimliyə təklif ünvanladı



8

## "Ona heç kəs nəzarət edə bilməyəcək"



16

## Bayden getdi, Tramp gəldi - bəs Ukrayna?



7

# Türk dünyasını birləşdirən siyasi güc!

## Prezident İlham Əliyev: "Azərbaycan TDT-nin möhkəmlənməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək"

**“Bu il Türk Dövlətləri Təşkilatının əsasını qoymuş Naxçıvan Sazişinin 15-ci ildönümüdür. Təşkilatımız bu dövr ərzində uğurlu inkişaf yolu keçib”. Bu fikirləri Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının iclasında çıxışı zamanı səsləndirib. İyul ayında Şuşa şəhərində keçirilmiş Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü zamanı imzalanmış Qarabağ Bəyannaməsinin əməkdaşlığın daha da dərinləşməsinə töhfə verdiyini bildirən Prezident İlham Əliyev qeyd edib: ”Azərbaycan Türk Dövlətləri Təşkilatının möhkəmlənməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək”.**

Son dövrdə Türkdilli dövlətlərin arasında qurulan əməkdaşlıq daha da güclənmiş və yeni, daha düşünülmüş, praqmatik mərhələsinə start verilib. Qeyd edək ki, bu gün türk dövlətləri siyasi fəallığı dünya siyasətinin gündəliyinin müəyyən edilməsinə getdikcə daha çox təsir göstərir. Qeyd edək ki, Türk Dövlətləri Təşkilatı türkdilli ölkələr arasında






hərtərəfli əməkdaşlığın genişləndirilməsinə böyük imkanlar yaratmış oldu. Türkdilli dövlətlər arasında səmərəli, etibarlı siyasi dialoq qurulub, bütün sahələrdə hərtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçirilir. Türkdilli ölkələrin vahid platformada birləşməsi bu ölkələr arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın yüksələn xətlə inkişafına təkandır. 2009-cu ilin oktyabrında türkdilli ölkələrin dövlət başçılarının Naxçıvanda keçirilən toplantısında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) yaradılması barədə qərarın qəbul edilməsi əməkdaşlığın yüksəlməsində mühüm rol oynadı və dünyada türk birliyinin daha da güclənməsinə şərait yaratmış oldu. Naxçıvan sazişinin imzalanmasından keçən müddət ərzində reallaşan layihələr, imzalanan sazişlər və s. türk dövlətləri arasında münasibətləri daha da yaxınlaşdırmış oldu. Naxçıvan sazişinin imzalanmasından keçən 15 il ərizində görülən işlər, qarşılıqlı səfərlər türk dövlətləri arasında inteqrasiyanı dərinləşdirmək üçün səmərəli platformaya çevrilib.

Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına Sədrlik dövründə türk dünyasının birləşməsinə böyük töhfələrini verdi. Azərbaycan Respublikasının Prezidenti, Türk Şurasının Sədri İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün keçirilməsi və bu görüşün koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunması dövlət başçıları səviyyəsində pandemiya ilə bağlı Zirvə görüşünü keçirən ilk beynəlxalq tədbir kimi tarixə düşdü. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşünü xüsusilə qeyd etməliyik. Qəbul olunan tarixi qərarlarla yadda qaldı. Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının ”Türk Dövlətləri Təşkilatı”na dəyişdirilməsi haqqında Qərar, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi haqqında Qərar, Azərbaycan Respublikası Prezidentinin ”Türk Dünyasının Ali Ordeni” ilə təltif edilməsi haqqında Qərar, Türk Şurası VIII Zirvə Görüşünün Bəyannaməsi, ”Türk dünyasına baxış - 2040” sənədinin qəbulu ilə bağlı Qərar, ”Türk dünyasının birliyinə verdiyi töhfələrə görə” Türk Dövlətləri Təşkilatının Əlişir Nəvai adına Beynəlxalq Mükafatı haqqında Qərar, Türk Dövlətləri Təşkilatında müşahidəçi status haqqında qaydalara dair Qərar və digər qərarların imzalanması tarixi hadisə olaraq əhəmiyyət daşıyır.

### ”2024-CÜ İLİN YANVAR-SENTYABR AYLARINDA ÜZV VƏ MÜŞAHİDƏÇİ DÖVLƏTLƏR İLƏ TRANZİT DAŞIMALARININ HƏCMİNDƏ 15 FAİZƏ YAXIN ARTIM MÜŞAHİDƏ EDİLİR”

Azərbaycanın Türk dünyası ölkələrinin birliyinə daha bir töhfəsi isə Orta Dəhliz layihəsidir. Orta Dəhlizi dəyər zənciri də adlandırmaq mümkündür. Lakin bu dəhlizin üstünlükləri və əhatə coğrafiyası Türk Dövlətləri Təşkilatının əsas əlaqələndiricisi kimi çıxış etməyə zəmin yaradır. Dəhlizin trayektoriyası da onun 1 trilyon ABŞ dollarından çox ümumi daxili məhsula (ÜDM) malik türk dövlətlərini birləşdirən bir layihə olduğunu deməyə tam əsas verir. Bu gün Azərbaycan Orta Dəhliz layihəsinin əsas vəsilələrindən biri hesab edilir. Ölkəmiz dəhlizin inkişafı və səmərəliliyi üçün öz ərazisində zəruri infrastruktur yaradıb. Orta Dəhlizin tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik ötürücülük qabiliyyəti Azərbaycanın sərmayələri hesabına 1 milyon tondan 5 milyon tona qədər artıb. Azərbaycan, eyni zamanda, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının illik ötürücülük qabiliyyətini ildə 15 milyon tondan 25 milyon tona çatdırmaq niyyətindədir. Ölkəmiz hazırda dəmir yolu daşımalarının həcminin ildə 15 milyon tona qədər artırılması üzərində işləyir, zərurət yaranarsa, bu rəqəm 30 milyon tona çatdırılacaq. Buradan da görünür ki, ölkəmiz Şərqdən Qərbə, yəni Mərkəzi Asiyadan Avropaya uzanan marşrutun səmərəliliyinin artırılması üzərində ciddi işləyir ki, bu da TDT-yə üzv dövlətlərin əksəriyyətinin yerləşdiyi coğrafiyadan onların yüklərinin Qərb istiqamətində daha qısa zamanda və daha ucuz çatdırılmasını təmin edir.

### ”MÜDAFİƏ, TƏHLÜKƏSİZLİK VƏ MÜDAFİƏ SƏNAYESİ SAHƏLƏRİNDƏ ƏMƏKDAŞLIĞIMIZ BÖYÜK ƏHƏMİYYƏT DAŞIYIR”

Xalqımız da böyük Türk dünyasının önəmli bir parçası olaraq fundamental dəyərlərə malik zəngin türk sivilizasiyasından faydalanmaqla yanaşı, bu sivilizasiyaya öz töhfəsini verməkdən böyük qürur duyur. Azərbaycan TDT-yə üzv olan ölkələrlə qardaşlıq münasibətlərinə malikdir. Türk dövlətlərini birləşdirən ortaq soy-kök, tarix, mədəniyyət və milli dəyərlər ölkələrimizin qarşılıqlı fəaliyyətinin əsasını təşkil edir. Azərbaycan türk dövlətləri ilə əlaqələrini ən yüksək formada inkişaf etdirməkdə və vahid türk ailəsinə daha da yaxın olmaqda maraqlıdır və bu istiqamətdə fəaliyyətini uğurla davam etdirir. Dövlətimizin başçısının TDT-yə üzv ölkələrin inteqrasiyasına və inkişafına töhfələri hər birimizə yaxşı məlumdur. ”Türk Dövlətləri Təşkilatının mövcud büdcəsi qarşıya qoyduğumuz hədəflərin həyata keçirilməsi üçün yetərli deyildir. Ümid edirəm ki, Azərbaycanın Türk Dövlətləri Təşkilatının Katibliyinə 2 milyon və Ağsaqqallar Şurasına 100 min ABŞ dolları məbləğində maliyyə dəstəyi təşkilatın potensialının daha da güclənməsinə töhfə verəcək”, - deyən Prezident bildirib ki, hazırda dünyada artan təhlükələri nəzərə alaraq müdafiə, təhlükəsizlik və müdafiə sənayesi sahələrində əməkdaşlığımız böyük əhəmiyyət daşıyır. Son dövrlər hüquq-mühafizə və təhlükəsizlik orqanlarımız arasında əməkdaşlıq daha da genişlənib. Ölkələrimizin silahlı qüvvələrinin iştirakı ilə hərbi təlimlər keçirilir. Hərbi təhsil müəssisələrimizdə qardaş ölkələrin müdavimlərinin təhsil alması qarşılıqlı etimadın və dostluğun göstəricisidir”.

### TÜRK DÜNYASININ ZƏFƏR İLİ

Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün Şuşada keçirilməsi, Qarabağ Bəyannaməsinin qəbul edilməsi tarixi əhəmiyyətə malik hadisəyə çevrildi. Bu görüş türk dövlətləri arasında əlaqələrin daha da möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Eyni soy-kökə və uzun tarixə söykənən türk dövlətləri arasında əlaqələr bu gün yeni dövrün çağırışlarına uyğun olaraq inkişaf etdirilir. Ölkələr arasında qarşılıqlı hörmət və etimad üzərində qurulmuş əlaqələr ötən müddət ərzində siyasi, iqtisadi, enerji, mədəni və digər sahələrdə dinamik şəkildə inkişaf edib və səmərəli əməkdaşlıq daha da yüksəlib. Tarixin bütün dönəmlərində türklər özlərinin qüdrəti, gücü, zəngin dövlətçilik ənənələri ilə seçilmiş, dünyanın ən üstün dəyərlərə malik sivilizasiyalarından birinə sahib olublar. Dünyanın ikili standartlara əsaslanan siyasətinin davam etdiyi bir dövrdə Türk dünyasının birliyinin zəruriliyi özünü daha aydın şəkildə göstərir. Məlumdur ki, 2020-ci il türk dünyası məhsuldar, Zəfər ili olaraq yadda qaldı. Belə ki, türk dünyasının önəmli uğurları, ən başlıcası Azərbaycan ərazilərinin işğaldan azad olunması, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi əhəmiyyətli hadisədir. Azərbaycan tərəfi məsələnin sülh yolu, danışıqlar masasında həll edilməsi istiqamətində addımlar atmış olsa da, Ermənistan faktiki olaraq danışıqlardan imtina etdi və ölkəmiz döyüş meydanında öz sözünü deyərək, Zəfər qazandı.

### TÜRK DÜNYASI BİRLİYİ

Vətən müharibəsindəki tarixi Zəfərimizdən sonra bu birliyin daha da möhkəmləndiyi diqqətdən kənarda qalmır. Dünya Türk dünyasının birliyinin şahidi oldu. Ümumilikdə türk dövlətləri arasında əlaqələr bütün sahələrdə uğurla inkişaf edir. Hazırda dünya bu birliyi işğaldan azad edilmiş torpaqlarımızda aparılan genişmiqyaslı bərpa-quruculuq işlərində aydın şəkildə görür. ”Ötən ilin sentyabr ayında Azərbaycan öz suverenliyini tam bərpa etdi. Ermənistan 30 il davam edən işğal dövründə bu ərazilərdə 9 şəhərimizi və yüzlərlə kəndimizi tamamilə məhv edib. İşğaldan azad olunan ərazilərdə indi genişmiqyaslı yenidənqurma və bərpa layihələri həyata keçirilir, eyni zamanda, Böyük Qayıdış Proqramının icrası çərçivəsində keçmiş məcburi köçkünlər öz doğma yurdlarına geri dönürlər”, - deyən dövlət başçımız bildirib ki, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Macarıstanın dövlət və hökumət başçılarına azad olunmuş ərazilərdə qardaşlıq hədiyyəsi olan məktəbə və yaradıcılıq mərkəzinə, eləcə də tikiləcək məktəblərə görə bir daha təşəkkürümü bildirmək istərdim.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən məktəb 960 şagird yerlikdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, 500 yerlik akt zalı, idman zalı, 320 yerlik yeməkxana, kitabxana var. Özbəkistanın Füzuli rayonunda böyük məktəb inşa etmək təşəbbüsü ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın növbəti addımıdır.

Bildiyimiz kimi, Azərbaycan bir neçə gündən sonra COP29-a ev sahibliyi edəcəkdir. Bu tədbirin Azərbaycanda keçirilməsi 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı hesab oluna bilər. İqlim dəyişikliyinə yeni yanaşmalar yaradacaq COP29 çərçivəsində Azərbaycan gündəliyinin yaşıl enerji ilə bağlı olmasını bir daha sərgiləyəcəkdir. Bildiyimiz kimi, yaşıl enerjinin inkişafı və yaşıl enerjinin dünya bazarlarına çıxışı Azərbaycanın enerji siyasətinin prioritetləri sırasındadır. ”Əminəm ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələr COP29 konfransının işində fəal iştirak edəcəklər” - deyə Prezident bildirib. Azərbaycanın yaxın günlərdə COP29 iqlim konfransına ev sahibliyi edəcəyini xatırladan dövlətimizin başçısı keçən ilin dekabrında 200-ə yaxın ölkənin Azərbaycanın namizədliyini yekdilliklə dəstəklədiyini, bunun beynəlxalq aləmin ölkəmizə böyük hörmətinin və dəstəyinin təzahürü olduğunu diqqətə çatdırıb.

***Nəzakət ƏLƏDDİNQIZI***





# Bişkekdə Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub

***Noyabrın 6-da Qırğızıstanın paytaxtı Bişkekdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.***

AZƏRTAC xəbər verir ki, görüşdə dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bir daha qeyd olundu. Bişkekdə keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşünün türk dövlətləri arasında əməkdaşlığın gücləndirilməsi işinə xidmət etdiyi vurğulandı. Söhbət zamanı Azərbaycanda keçiriləcək COP29-un əhəmiyyəti bir daha qeyd edildi.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik bildirildi, ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Tramp 47-cidir

## ...Yaxud, qalibi bəlli olan seçki

ABŞ-da son onilliklərin ən rəqabətlisi adlandırılan prezident seçkiləri başa çatdı. Fox News kanalının ən son açıqlamasına görə Respublikaçı Donald Tramp 277 səs (qalib gəlmək üçün 270 səs lazımdır), Demokrat Kamala Harris isə 226 səs qazana bilib. Tramp isə tərəfdarları qarşısında çıxışı zamanı özünü ABŞ-ın 47-ci prezidenti adlandırıb. "The New York Times" ilkin nəticələr və exit-poll məlumatlarına əsaslanaraq Trampın seçkilərdə qalib gələcəyini 95% ehtimalla proqnozlaşdırmıdı. Senat seçkilərində hələ də respublikaçılar liderdir (onlar üçün 51 yer, demokratlar üçün 43 yer). Nümayəndələr Palatasına seçkilərdə Respublikaçılar 183, Demokratlar isə 154 yerə sahibdirlər.



### Seçkilər zamanı baş verənlər

Pensilvaniya ştatının bir seçki dairəsində bülletenlərin skan edilməsini çətinləşdirən proqram nasazlığı yaşanıb. Nəticədə səsvermə vaxtı uzadılıb. CNN xəbər verir ki, ABŞ-da Corciya ştatının Battleground Gwinnett qraflığında bir seçki məntəqəsi bomba təhlükəsi səbəbindən boşaldılıb, lakin məlumat təsdiqlənməyincə yenidən açılıb.

ABŞ Federal Təhqiqatlar Bürosu (FTB) Respublikaçılar Partiyasından prezidentliyə namizəd Donald Trampın seçkilərdə qalib gələcəyi təqdirdə tərəfdarlarını güllələməklə hədələyən Miçiqan sakinini saxlayıb. Bu barədə ABC telekanalı məlumat yayıb. Şübhəli şəxs Kanton şəhərində nəzarətə götürülüb. Associated Press xəbər verir ki, Miçiqan ştatında təbii qaz sızması səbəbindən seçki məntəqəsi bağlanıb. Seçicilər başqa məntəqəyə yönləndirilib.



### Tarixin ən bahalı seçkisi: 3,5 milyard dollar

Financial Times yazır ki, 2024-cü il seçkiləri ABŞ tarixində ən bahalı seçki oldu. Tramp və Harris onları hazırlamaq üçün 3,5 milyard dollar xərcləyiblər. Eyni zamanda, ümumi reklam xərcləri seçki kampaniyası xərclərinin yarısını təşkil edib. 2024-cü il noyabrın 5-də keçirilən prezident seçkiləri ABŞ tarixində ən bahalı seçki olub. ABŞ-ın keçmiş prezidenti Donald Tramp və vitse-prezident Kamala Harris onlara hazırlıq üçün 3,5 milyard dollar xərcləyib. Qeyd olunur ki, seçki qərargahının topladığı vəsaitlə bağlı son məlumatlara görə, hər iki namizəd 4,2 milyard dollar toplaya bilib.

Harris vəsait toplamaqda Trampı çox geridə qoyub: O, 2,3 milyard dollar toplayıb, bunun 1,9 milyard dolları kampaniyaya xərclənib. Trampın rəqəmləri daha təvazökardır - müvafiq olaraq 1,8 milyard və 1,6 milyard.

Ümumi reklam xərcləri seçki kampaniyası xərclərinin yarısını təşkil edib. Eyni zamanda, yalnız yeddi "əsas" ştatda xərclər 1,5 milyard dollar təşkil edib. Təkcə Pensilvaniyada hər iki tərəf reklam üçün 400 milyon dollar xərcləyib, 43 digər ştatı arasında isə 358 milyon dollar.

### Tramp artıq qalibdir

Seçkilərin rəsmi nəticələrindən asılı olmayaraq, Amerika artıq Trampın xeyrinə qərar verib. Ekspertlər əmindir ki, siyasətçinin uzun illər ictimai fəaliyyətinin nəticələri ABŞ vətəndaşlarına bir ömür təsir edəcək. Bu seçki ABŞ üçün daha bir qeyri-sabit dövrə damğasını vurdu. Son iki onilliyin dramları Amerika siyasətinin ayrılmaz hissəsinə çevrilib: impiçmentlər, qətllərə cəhd, ittihamnamələr, media qalmaqalları və dövlət çevrilişləri artıq konstitusiya səhvləri deyil, Amerika sisteminin xüsusiyyətlərini müəyyənləşdirir.

*Ardı Səh. 4*

Əvvəli Səh. 3

Amerikanın bir millət və ya imperiya kimi rəqabət aparan baxışları arasındakı mübarizə dövrümüzün həlledici məsələsi olaraq qalır. Vaşinqtonun Donald Trampın seçkilərdə son məğlubiyyətinin və ya həbsinin bu müzakirələrin onların xeyrinə başa çatacağına ümid etməsinə baxmayaraq, çox güman ki, bu fundamental konstitusiya mübarizəsi Tramp Amerika ictimai həyatının faktiki rəhbərinə çevrildikdən çox sonra da davam edəcək.

Neoliberallar üçün nə qədər kədərli olsa da, Harris qələbə qazanmış olsaydı belə Trampın şəxsiyyətinin ictimai həyata təsirini silməyəcəkdi. Amerikalıların bir nəsli Trampın "Birinci Amerika" inqilabının kölgəsində böyüdü. 30 yaşdan kiçik seçicilər üçün Tramp ritorikası, teatr və şikayətlər onların mənalı şəkildə məşğul olduqları yeganə siyasətdir. Xüsusilə bir çoxları iqtisadi və sosial maraqlarına məhəl qoymadığını hiss etdikləri elitist mədəniyyətə reaksiya olaraq Trampın döyüş tərzini mənimsəyib. Tramp mühüm üsullarla mədəniyyəti təsirli şəkildə ləğv edib: solun ritorika sistemi onu saxlaya bilmədi və onun onillik media hücumları vasitəsilə inadkarlığı gələcək anti-qurum səlibçilərinə yol açdı.

Siyasi həyata gəldikdə, Amerikanın yenidən qurulmasının gələcəyi təmin edilir. İslahat tərəfdarlarının Tramp bayrağı altında birləşməsi bir neçə nəsildir ki, davam edir və güclü potensiala malikdir. Bob Kennedinin geniş gündəliyi əsasən respublikaçı seçicilər tərəfindən mənimsənildi və Tulsi Gabbardın realizmi və təmkinliliyi xarici siyasət məsələlərində üstünlük təşkil etdi. İlon Mask, Jeffrey Sachs və Bill Ackman kimi fiqurlar indi partiyanın yenilənmiş biznes qanadının əsasını təşkil edir. Senator J.D.Vansın vitse-prezidentliyə namizəd kimi seçilməsi onu bu hərəkatın varisi edir - Respublikaçılar Partiyasının ticarəti və yerli sənayeni qorumaq üzrə yeni öhdəliyinin təcəssümü. Trampın 2024-cü ildə təkrar seçki kampaniyası olmasaydı, Florida qubernatoru Ron DeSantisin təmsil etdiyi ənənəvi mühafizəkar maraqlar qalib gələ bilərdi. Demokratlar bunu hələ dərk etməyə bilər, amma Amerika Birinci hərəkatı hələ başlanğıc mərhələsindədir.

Təbii ki, Donald Tramp bu gün qalib. Əgər o, qalib gəlibsə, bu, 1828-ci ildə Endryu Ceksonun Şərq elitalarını devirdiyi və Amerika demokratiyasını orta Amerikanın maraqlarına xidmət etmək üçün yönləndirdiyi seçkidən bəri ən böyük siyasi çevriliş sayılmalıdır. Trampın siyasi qayıdışı Amerika milli tarixinin ən böyük hadisəsi olacaq və çürümədə olan neoliberal dünya nizamına həlledici, sarsıdıcı zərbə vuracaq. Kamala Harrisin dərin mürtəce kampaniyası uğursuz oldu və Birləşmiş Ştatlar bundan sonra çətin ki, başqa neoliberal prezident seçsin. Uzun müddət Amerika öhdəlikləri ilə dəstəklənən qlobal institutlar və liberal ticarət müqavilələri üçün nəticələr aydın və geniş olacaq.

Bugünkü seçkinin nəticəsindən asılı olmayaraq, Donald Trampın onillik ictimai fəallığının təsirləri bir nəsil üçün əks-səda verəcək. Trampın hərəkatına xələl gətirmək üçün mürtəce cəhdlərə baxmayaraq, qərar artıq verilib. Amma rəsmi məlumat hələlik yoxdur, lakin üslub və mahiyyət məsələlərində Donald Tramp artıq qalib gəlib.

# Tramp 47-cidir

## *...Yaxud, qalibi bəlli olan seçki*



### Respublikaçılar ABŞ Senatında çoxluq əldə edirlər

Respublikaçılar Partiyasının üzvləri Senatda (ABŞ Konqresinin yuxarı palatası) 51 yer əldə ediblər ki, bu da onlara əksəriyyət, ya da çoxluq statusu verir. Fox News xəbər verir ki, Demokratlar, ilkin məlumatlara görə, 43 yerə sahibdirlər.

Respublikaçıların qələbəsini partiyanın prezidentliyə namizədi Donald Trampın namizədliyini təsdiqlədiyi Berni Moreno gətirib. Moreno Senatın Bank Komitəsinə sədrlik edən, üç müddətə senator olmuş demokrat Şerrod Braunu üstələyib. The Washington Post qəzetinin yazdığına görə, respublikaçı kripto sənayesindəki reklamdan milyonlarla dollar qazanıb. Nümayəndələr Palatasında (Konqresin aşağı palatası) hazırda respublikaçılar 186, Demokratlar partiyası isə 160 yerə malikdir. Çoxluğu əldə etmək üçün 218 səs toplamaq lazımdır.

### Amerika növbələrdə dayanmışdı

Ənənəvi olaraq noyabrın ilk çərşənbə axşamına təsadüf edən prezident seçkilərində seçicilər fəallıq nümayiş etdiriblər: 80 milyondan çox insan poçtla səs verib və ya öz seçimini şəxsən edib. Erkən səsvermənin rekord göstəricilərə yaxın olmasına baxmayaraq, noyabrın 5-də bir çox seçki məntəqələrində uzun növbələr yaranıb. Hakimiyyət öz növbəsində 2020-ci il seçkilərini nəzərə alaraq əlavə təhlükəsizlik tədbirləri görüb, o zaman ki, cənab Tramp demokrat Co Baydenə məğlubiyyəti etiraf etmədi. 2021-ci il yanvarın 6-da qəzəbli kütlənin Kapitoliyə hücumu ilə nəticələndi.

ABŞ-da demək olar ki, hər bir prezident seçkisi həm Amerika, həm də dünya ictimaiyyəti üçün taleyüklü elan edilir. Mübarizənin dərəcəsi o qədər yüksək idi ki, ekspertlər nəinki döyüşdən kimin qalib çıxacağını inamla proqnozlaşdırmaqdan çəkindilər, həm də Amerikanın noyabrın 6-da səhər oyanacağına dair ümidlərini itirmişdilər. Dövlət orqanları cəmiyyətdəki gərginliyi nəzərə alaraq əlavə təhlükəsizlik tədbirləri görmüşdü. O cümlədən, seçki komissiyalarının əməkdaşları ilə xüsusi təlimlər keçirilmiş, onlara seçicilər arasında münaqişə yarandıqda gərginliyin aradan qaldırılması taktikası, silah sahibləri ilə ünsiyyət və təhlükəli vəziyyətlərin aradan qaldırılması üçün faydalı olan digər bacarıqlar öyrədilmişdi. Bəzi dairələrdə seçki məntəqələrində panik düymələri quraşdırılmışdı, ölkə üzrə yüzlərlə seçki məntəqəsi güllələkeçirməz şüşə və polad qapılarla möhkəmləndirilmişdi.



Eyni zamanda hökumət rəsmiləri qeyd ediblər ki, təhlükəsizlik tədbirlərinin artırılması iğtişaşların gözləməsi demək deyil, əksinə, hər hansı zorakılığın qarşısını almaq üçün qabaqlayıcı tədbirdir. Bu və ya digər şəkildə amerikalıları 2024-cü il seçkilərinin onların ölkələri üçün taleyüklü hadisə olduğuna uzun müddət inandırmağa ehtiyac yox idi. Erkən səsvermə göstərdi ki, seçicilər bu tezislə razılaşırlar və buna görə də noyabrın 5-nə kimi görünməmiş seçki fəallığı nümayiş etdirirdilər.

### ABŞ-Azərbaycan əlaqələri - 2017-2021

Azərbaycan-ABŞ əlaqələrinə nəzər yetirmək olduqca vacibdir. Dünyanın sözügedən fövqəl dövləti ilə Azərbaycan arasındakı münasibətləri şərtləndirən əsas amillər, bir yandan, ABŞ-ın ölkəmizin beynəlxalq təhlükəsizliyinə və müstəqilliyinə təminat vermək, onun ayaq üstə dayanmasına ilkin iqtisadi və siyasi dəstək göstərmək, sivil dövlətlərarası münasibətlər sisteminə inteqrasiya olunmasına yardım etmək imkanı ilə əlaqəlidirsə, digər yandan, Azərbaycanın ABŞ-ın milli mənafeləri baxımından əlverişli geosiyasi ərazidə yerləşməsi, zəngin təbii ehtiyatlara, xüsusən neft yataqlarına malik olması və beynəlxalq prinsiplərə uyğun, sivil və müstəqil siyasət yeritməsi ilə bağlıdır. Burada təbii ki, Azərbaycanın da milli maraqları nöqteyi nəzərindən əlaqələrin inkişafına töhfə verməsi də əsas amillərdəndir. Azərbaycan-ABŞ əlaqələrinin qurulması və əsaslı şəkildə inkişaf etməsi heç şübhəsiz ulu öndər Heydər Əliyevin xarici siyasət kursu ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin layiqli varisi Prezident İlham Əliyevin bu xarici siyasət kursuna sadiq qalaraq Azərbaycan-ABŞ əlaqələrində müsbət dinamika əldə olunmasındakı rolu da əvəzolunmazdır. Burada biz ABŞ-ın Qafqaz siyasətində və Azərbaycana münasibətdə artıq özünü açıq-aşkar büruzə verən dəyişikliklər, ilk növbədə, bu illərdə yürüdülən məqsədəyönlü xarici siyasətin, xüsusən neft siyasətini qeyd etməliyik. Xəzər dənizinin neft yataqlarının istismarına ABŞ-ın ən iri şirkət və kampaniyalarının cəlb edilməsi Azərbaycan dövləti üçün mühüm və həyati əhəmiyyət kəsb edən və çox zəruri vəzifələrin yerinə yetirilməsinə yardım etməklə bərabər, həm də iki ölkə arasındakı münasibətlərin strateji əməkdaşlıq və tərəfdaşlıq istiqamətində inkişafını sürətləndirdi. ABŞ-ın neft kampaniyalarının Azərbaycana çox böyük miqdarda investisiya qoyması respublikamızı Amerikanın iqtisadi tərəfdaşına çevirdi.

Azərbaycanla ABŞ arasında enerji sahəsində 1994-cü ildə Azəri-Çıraq-Günəşli yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi üzrə "Əsrin müqaviləsi"ndə ABŞ şirkətlərinin yer alması ilə başlanan əməkdaşlıq, Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən əsas ixrac neft və qaz kəmərlərinin tikintisinə fəal dəstək ilə davam edib. Donald Trampın ABŞ-a prezidentlik etdiyi dönəmdə - 14 sentyabr 2017-ci ildə Azəri, Çıraq və Günəşli yatağının dərinsulu hissəsinin birgə işlənməsinin 2050-ci ilədək uzadılmasına dair yenilənmiş Hasilatın Pay Bölgüsü (HPB) sazişində Şevron və Ekson şirkətləri yer alıb. ABŞ Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsini dəstəkləyir.

Belə ki, ABŞ Cənub Qaz Dəhlizinə qətiyyətlə sadiq olduğunu və layihənin tamamlanması üçün Azərbaycan və onun beynəlxalq tərəfdaşlarının səylərini dəstəklədiyini dəfələrlə bildirib. 2017-ci ildə "Azərbaycan Hava Yolları" və "Silk Way Airlines" ilə Boeing arasında təyyarələrin alınmasına dair ümumilikdə 3 milyard ABŞ dolları dəyərində, 2021-ci ilin aprelində "Silk Way West Airlines" ilə Boeing arasında 5 ədəd Boeing 777F tipli karqo təyyarəsinin alınması barədə sazişlər imzalanıb.

ABŞ, həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsini, xüsusilə Cənub Qaz Dəhlizinin ərsəyə gəlməsini dəstəkləyir. Bu xüsusda ABŞ Prezidenti Donald Tramp bir neçə dəfə bildirmişdir ki, ABŞ Cənub Qaz Dəhlizinə qətiyyətlə sadiqdir və layihənin tamamlanması üçün Azərbaycan və onun beynəlxalq tərəfdaşlarının səylərini dəstəkləyir. "Mən Azərbaycanın Xəzər dənizindən enerji resurslarının inkişafı və ixracı da daxil olmaqla qlobal enerji təhlükəsizliyinin möhkəmləndirilməsində rolunu yüksək qiymətləndirirəm".

COVID-19 pandemiyası dövründə bütün dünyada, o cümlədən ABŞ-da və Azərbaycanda kiçik və orta biznes üçün çətinliklər yaratmışdı. Amerikanın verdiyi əlavə maliyyə vəsaiti Azərbaycanda kiçik və orta biznes sahiblərinə və onların işçilərinə böhrandan çıxmaqda və uğur qazanmaqda kömək etmişdir. Trampın rəhbərlik etdiyi administrasiya COVID-19 böhranı boyunca və onun təsirlərindən qurtarana qədər Azərbaycan xalqının yanında olub. Bunun üçün Birləşmiş Ştatlar ölkəmizdə COVID-19 pandemiyasına cavab tədbirləri üçün Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası, Beynəlxalq Qızıl Xaç Komitəsi, Beynəlxalq Miqrasiya Təşkilatı, Azərbaycan Qızıl Aypara Cəmiyyəti və BMT-nin Uşaq Fonduna (UNICEF) maliyyə vəsaiti ayırıb.

32 ildir ki, Azərbaycan ilə ABŞ arasında münasibətlər qarşılıqlı hörmət və əməkdaşlıq prinsipləri çərçivəsində inkişaf edir. İki ölkə daha dərin və strateji əməkdaşlığa hazır olduğunu heç vaxt gizlətməyiblər. Birləşmiş Ştatların istənilən rəhbərliyi üçün öz fəaliyyətində milli təhlükəsizlik və ölkəsinin strateji maraqları baxımından çıxış etmək həlledici olub. Bu maraqlar isə Cənubi Qafqazda Azərbaycanla bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığı diktə edir və bu o deməkdir ki, Birləşmiş Ştatların istənilən prezidenti dövründə ABŞ və Azərbaycan arasında əməkdaşlığın önəmi böyük olacaq. Bütün bunları nəzərə alaraq ABŞ Azərbaycana sabitlik və təhlükəsizliyə töhfə verən, qlobal arenada mühüm təşəbbüslərlə çıxış edən və yaranan problemlərin həllinə əməli dəstək verən güclü, dinamik inkişaf edən ölkə kimi baxır.

***V.VƏLİYEV***

# Sonun başlanğıcı: yaxud ABŞ Orta Asiyada

## ABŞ-ın Orta Asiyadakı planlarını pozmaq üçün birləşən ölkələr

***SSRİ-nin dağılmasından sonra Orta Asiya ABŞ-ın öz nəzarətini bərqərar etməyə çalışdığı prioritet bölgələrdən birinə çevrilib. Lakin Rusiya, Çin, İran və Türkiyə bloku əsl maneəyə çevrilib. Vaşinqtona keçmiş sovet respublikalarının (Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan) resurslarına (əsasən neft, qiymətli metallar və radioaktiv maddələr) çıxış əldə etmək, həmçinin Avrasiyanın nəqliyyat və logistika dəhlizlərinə nəzarət etmək lazımdır.***

Əvvəlcə Atlantik cəbhəsi üçün işlər yaxşı gedirdi. Əfqanıstanı işğal etdikdən sonra ABŞ Özbəkistan və Qırğızıstanda hərbi bazalar yaratdı. Lakin Vaşinqton Özbəkistanın daxili işlərinə qarışmağa adət edəndə "demokratiya dərslərindən" narazı qalan Daşkənd 2005-ci ildə amerikalılardan ölkəni tərk etməyi tələb etdi. 2014-cü ildə isə ABŞ-ın Qırğızıstanla hərbi əməkdaşlığı dayandırıldı. Əfqanıstanda faktiki məğlubiyyətdən və Amerika hərbi kontingentinin oradan çıxarılmasından sonra Ağ Ev yenidən bazalarının Mərkəzi Asiya və Pakistanda yerləşməsi ilə bağlı razılığa gəlməyə çalışdı. Lakin bu təkliflər qəti şəkildə rədd edildi. Eyni məsələni Rusiya ilə müzakirə etməyə çalışmaq çox qəribə göründü və nəticə gözlənildiyi kimi mənfi oldu.



### Qalıcı ambisiyalar

Bununla belə, regionun "ürəyinə" nəzarət ABŞ-ın əsas strateji məqsədlərindən biri olmaqda davam edirdi. 2015-ci ildə demokrat Barak Obamanın dövründə "Mərkəzi Asiya + ABŞ" ("C5+1") formatı yaradıldı. O zaman Ağ Ev xüsusilə Çinin "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində regionda əməkdaşlığı genişləndirmək planlarından narahat idi.




Donald Trampın prezidentliyi dövründə C5+1 formatında əməkdaşlıq davam etdi, lakin təşəbbüsdə iştirak səviyyəsi xarici işlər orqanlarının rəhbərlərindən tutmuş regional əlaqələndiricilərin köməkçilərinə qədər aşağı düşdü. Co Baydenin Ağ Evə gəlişi ilə ABŞ Mərkəzi Asiya üzərində nəzarəti bərqərar etmək üçün səylərini təzələdi. Ötən ilin payızında dövlət başçılarının iştirakı ilə ilk dəfə olaraq C5+1 formatında sammit keçirildi.

### ABŞ-ın qarşısında duran maneələr

Lakin ABŞ Mərkəzi Asiyaya hakim ola bilməz, çünki Çin, Rusiya, Türkiyə və İran regionda fəal oyunçulardır və çox güclü tərəfdaşlıq əlaqələri var. Onları arxa plana keçirmək olmaz. Amerikalılar Rusiya və İranı sanksiyalarla əzməyə, onları "şər oxu" ölkələri elan etməyə çalışsalar da (kiçik Buşun İraqa hücumu zamanı istifadə etdiyi bu termin) heç bir şübhə yoxdur ki, bunlar dərin köklərə, böyük iqtisadiyyatlar və güclü, möhkəm ordulara malik dövlətlərdir. Çin Mərkəzi Asiya dövlətləri ilə əməkdaşlığı günü-gündən inkişaf etdirdiyi halda, Türkiyənin artıq bölgə ilə çoxlu güclü tarixi, mədəni və iqtisadi əlaqələri var. Türkiyə kağız üzərində ABŞ-ın müttəfiqi kimi görünsə də, uzun müddətdir hədəfdədir.

Üstəlik, ABŞ-ın Türkiyə, Suriya, İraq və İran torpaqlarını bölüşdürərək bölgədə yaratmaq istədiyi "Kürdüstan" adlı ikinci İsrail planı artıq məlumdur. Mərkəzi Asiyanın enerji ehtiyatlarına da nəzarət etmək istəyir.

### ABŞ üsulları və Qazaxıstan nümunəsi

Amerikalılar sevimli üsula əl atırlar. Onlar öz geosiyasi rəqiblərinin dövlətlərini daxildən məhv etməyə çalışırlar. Onlar həmişə eyni sübut olunmuş üsullardan istifadə edirlər: özlərindən mütləq asılı vəziyyətə saldıqları daxili müxalifət vasitəsilə iğtişaşlar yaradırlar, dövlət çevrilişləri planlaşdırır, sonra da öz marionetlərini hakimiyyətə gətirirlər.



2022-ci ilin yanvarında ABŞ Qazaxıstanda belə bir ssenari həyata keçirməyə çalışdı. Qazaxıstanın qərbində, qaz hasil edən Janaozen şəhərində başlayan etirazlar Almatı və bir sıra digər böyük şəhərlərə yayıldı.

Etirazçılar iqtisadi tələblərdən hökumətin istefasını və ölkənin birinci prezidenti Nursultan Nazarbayevin siyasətdən tamamilə uzaqlaşdırılmasını əhatə edən bir sıra siyasi şərtlərə keçdilər. Hökumət binalarının yandırılması və talan edilməsi kimi iğtişaşlar yalnız ölkədə fövqəladə vəziyyət elan edildikdən və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı tərəfindən sülhməramlı qüvvələr yerləşdirildikdən sonra dayandırıldı.




### Türk dünyasının maraqları kimlərlə kəsişir?

ABŞ-ın Şərqi Avropa, Şərqi Aralıq dənizi, Qara dəniz, Qafqaz və Qərbi Asiyada bütün siyasəti Çin, Rusiya, İran, Türkiyəni zəiflətmək, təcrid etmək və bu ölkələrin hazırladığı layihələri məhv etmək məqsədi daşıyır. Mərkəzi Asiyada da Vaşinqton eyni məqsədləri güdür. Bu məqsədlər təkcə Rusiya və Çinin deyil, bütün türk dünyasının, o cümlədən Türkiyənin maraqları ilə tamamilə ziddiyyət təşkil edir.

*Ardı Səh. 6*



# Sonun başlanğıcı: yaxud ABŞ Orta Asiyada

*ABŞ-ın Orta Asiyadakı planlarını pozmaq üçün birləşən ölkələr*

Əvvəli səh. 5

## Problemin adını çəkək!

Vaşinqton hara müdaxilə edirsə, xaos yaranır, müharibələr alovlanır, separatçı və ya ekstremist terrorizm artır, dövlətlər parçalanır. Ona görə də Kipr, Suriya, Ukrayna, Orta Asiya, Tayvan, Fələstin "Amerika hegemonluğu" adlı böyük problemin hissələridir. ABŞ-ın bölgədə hökmranlıq etmək cəhdləri ancaq Qara dənizdən Ərəbistan dənizinə, oradan Orta Asiya və bütün Avrasiyaya qədər ortaq strategiya həyata keçirməklə və kollektiv Qərbin hücumlarına qarşı birgə müqavimət göstərməklə qarşısı alına bilər.

Aydındır ki, ABŞ-la əməkdaşlıq heç kimə yaxşı heç nə gətirməyib və gətirməyəcək. Bu mənada gözümüzün qarşısında ən aktual və parlaq nümunə amerikalıların Ukraynadakı hərbi münaqişəyə sponsorluq etdiyi Avropa İttifaqının çökməkdə olan iqtisadiyyatıdır.

## 1990-cı illərin dərsləri

Türkiyə 1990-cı illərin əvvəllərində Amerika layihələri çərçivəsində Orta Asiyaya daxil olmağa çalışdı. Bu, SSRİ-nin dağılmasından əvvəl yeganə müstəqil türk dövləti idi və ABŞ-ın dünyaya hökmranlıq iddialarının pik nöqtəsində Türkiyə postsovet dövründə yeni müstəqillik qazanmış türk dünyasının lideri rolunu iddia edirdi.

Lakin o zaman ABŞ və Aİ Türkiyənin maraqlarını arxa plana keçirdi və Mərkəzi Asiyadan enerji resurslarının tədarükü ilə bağlı bir sıra iri layihələr iflasa uğradı. Ümumiyyətlə, Ankaranın regionu öz təsir orbitinə daxil etmək cəhdləri baxımından bu dövrü son dərəcə uğursuz adlandırmaq olar.

Türkiyənin o dövrdəki strategiyası millilikdən uzaq idi və Amerikanın planlarının bir hissəsi idi. Ən bariz nümunələrdən biri 1995-ci ildə Çillər administrasiyasının NATO ilə birgə Azərbaycanda həyata keçirmək istədiyi uğursuz çevriliş cəhdidir. Üstəlik, bu dövrdə xarici siyasətdəki uğursuzluqlar da Türkiyənin təhlükəsizliyinə təhdidlər yaradırdı. Heç kimə sirr deyil ki, son 30 ildə Fətullahçı Terror Təşkilatı (FETÖ), o cümlədən






Türkiyə hökumətlərinin yardımı ilə Türkmənistan, Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Tacikistan, həmçinin Azərbaycan və Monqolustanda bəzi proseslər gedirdi. Bu dövrdə ABŞ-ın Orta Asiya strategiyasını ən yaxşı işıqlandıran mənbələrdən biri də Ergenekon planı zamanı FETÖ tərəfindən öldürülən Türkiyə Milli Kəşfiyyat Təşkilatının Xarici Əməliyyatlar İdarəsinin keçmiş rəhbəri Kaşif Kozinoğlunun xatirələridir.

## Antidot: inteqrasiya prosesləri

Yalnız regional inteqrasiya prosesləri ABŞ-ın destruktiv siyasətinə qarşı tarazlığa çevrilə bilər. Bu proseslər xüsusilə Avrasiya məkanında çox aktiv və rəngarəngdir. Çin, Rusiya, Hindistan, İran və Pakistanla birlikdə Şanxay Əməkdaşlıq Təşkilatı, Avrasiya İqtisadi İttifaqı və BRİKS kimi bir sıra iri iqtisadi birliklərə Mərkəzi Asiya ölkələri də daxildir.

Eyni zamanda, Türkiyənin təşəbbüsü ilə yaradılan Türk Dövlətləri Təşkilatına (TDT) Mərkəzi Asiya ölkələri, xüsusilə Qazaxıstan, Qırğızıstan, Özbəkistan, eləcə də müşahidəçi statusunda olan Türkmənistan daxildir. Bu o deməkdir ki, bütün bu təşkilatların üzvlərinin çoxlu ümumi maraqları və kəsişmə nöqtələri var. Türk dünyasının inteqrasiyası bütün Avrasiya məkanında inteqrasiya ilə ziddiyyət təşkil etmir, ona görə də TDT regionun digər böyük dövlətləri: Rusiya, Çin, Pakistan, Hindistan və başqaları ilə qarşılıqlı əlaqə yaratmaq üçün ən güclü və təsirli vasitəyə çevriləcək.

## Ərdoğan və Lavrovun bəyanatları

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan iyul ayında etdiyi bəyanatda ŞƏT, BRİKS və TDT arasında əməkdaşlıqda problem görmədiyini və hətta bu əlaqələrin dünya sülhünə töhfə verdiyinə inandığını vurğulayıb. Rusiyada keçirilən BRİKS sammitində Rusiyanın xarici işlər naziri Sergey Lavrov da Mərkəzi Asiya ölkələri arasında TDT çərçivəsində əməkdaşlıqdan müsbət danışıb. Gələcək üçün Türk Dövlətləri Təşkilatının öz ərazilərində böyük türkdilli əhalinin olmasını nəzərə alaraq tarixi və hazırkı tərəfdaşları kimi Rusiya, Çin və İranla öz fəaliyyətlərini əlaqələndirməsi çox vacibdir.

## "Böyük Turan"dan "isti dənizlərə"

Əməkdaşlıq həm də dövlətlərin irimiqyaslı, tarixi məqsədləri baxımından əsas rol oynayır. Moskva başa düşür ki, Türkiyə ilə dostluq və əməkdaşlıq olmadan "isti dənizlərə" girə bilməyəcək. Eyni zamanda, Ankara Rusiya və Çinlə əməkdaşlıq etmədən "Böyük Turan" yaratmaq və "Türk dünyasını birləşdirmək" strategiyasını həyata keçirə bilməyəcək.

Avrasiyanın Turanın başqa adı olduğunu düşünənlər də var, Avrasiya bu coğrafiyanın bütün yerli xalqlarının böyük vətənidir və türkləri Avrasiyanın digər xalqlarından ayıran deyil, əksinə onları birləşdirən "Turan"dır. Mahmud əl-Kaşqarinin "Başsız baş örtüyü olmadığı kimi türkə qohum olmayan fars ola bilməz" kəlamı və adi rus deyimi: "Rusu cız, tatar taparsan" ifadəsidir. Bu coğrafiyanın yerli xalqlarının birliyi və qarşılıqlı əlaqəsi davamlı olmalıdır ki, böyük Turanı qura bilək.

Burada əsas söz əməkdaşlıqdır. Mərkəzi Asiyada müstəsna dominantlığa can atan və digər dövlətlərə itaətkar marionet rolunu təyin edən ABŞ-ın strategiyasından fərqli olaraq, Türkiyə-Azərbaycan-Mərkəzi Asiya ölkələri-Çin əməkdaşlığı Avrasiya inteqrasiyasına töhfə verəcək və regionda real təhlükəsizliyi təmin edəcək.

**V.VƏLİ**

# Prezident İlham Əliyev Donald Trampı yenidən ABŞ Prezidenti seçilməsi münasibətilə təbrik edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə Donald Trampı təbrik edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı təbrik məktubunda qeyd edib: ”Seçkilərdə qazandığınız inamlı qələbə dost Amerika xalqının şəxsən Sizə, yürütdüyünüz siyasi xəttə böyük dəstək və etimadının aşkar ifadəsidir. Azərbaycan Respublikası Amerika Birləşmiş Ştatları ilə münasibətlərinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir.***

Siz birinci prezidentlik dövrünüzdə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə, əməkdaşlığımızın davamlı və ardıcıl inkişafına böyük diqqət ayırırdınız. Məmnunluqla qeyd etmək istərdim ki, bu dövr ərzində qarşılıqlı etimad və dəstəyə əsaslanan tərəfdaşlığımız, o cümlədən bir sıra mühüm sahələrdə, xüsusilə də qlobal çağırışlara və terrorizmə qarşı mübarizədə, beynəlxalq sülhün və təhlükəsizliyin gücləndirilməsində, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində birgə fəaliyyətimiz dinamik və yüksələn xətt üzrə inkişafı ilə səciyyələnirdi. Azərbaycanın enerji strategiyasına Sizin daim qətiyyətli dəstəyinizi xüsusi qeyd etmək istərdim.

Biz Birləşmiş Ştatlar ilə qarşılıqlı fəaliyyətimizin böyük potensialından yararlanaraq ikitərəfli tərəfdaşlığımızı bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi-ticari, təhlükəsizlik, enerji, yaşıl və rəqəmsal keçid və digər istiqamətlər üzrə daha da genişləndirmək və dərinləşdirmək əzmindəyik. İnanırıq ki, Sizin yeni prezidentlik dövrünüzdə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında münasibətlər daha da möhkəmlənəcək, yeni əməkdaşlıq sahələri müəyyən olunacaqdır”.

Azərbaycanın bundan sonra da Cənubi Qafqazda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində fəaliyyətini davam etdirəcəyini bildirən Prezident İlham Əliyev vurğulayıb: ”Əminəm ki, Azərbaycan-ABŞ dostluq münasibətlərinin güclənməsi, ölkələrimizin milli maraqları, o cümlədən milli təhlükəsizlik maraqları əsasında tərəfdaşlığımızın irəli aparılması yolunda bundan sonra da birgə səylər göstərəcəyik”.




# YAP İdarə Heyətinin iclası keçirilib

Noyabrın 6-da Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib. İclasda YAP Xətai və Nərimanov rayon təşkilatlarına sədr təyin olunması məsələsinə baxılıb, Ramil Kamil oğlu Mirzəyevin və Elçin Bəybala oğlu Quliyevin namizədliyi ətrafında müzakirələr aparılıb. YAP İdarə Heyətinin üzvləri Musa Quliyev, Şahin İsmayılov, Mübariz Qurbanlı, Hikmət Məmmədov, Bahar Muradova, Elmar Qasımov, Azər Badamov, Kamal Cəfərov, Bayram Aslanov və Əfsun Sucayev çıxış edərək hər iki şəxsin namizədliyini dəstəklədiklərini bildirib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Müzakirələrdən sonra Ramil Kamil oğlu Mirzəyevin YAP Xətai rayon təşkilatının, Elçin Bəybala oğlu Quliyevin isə Nərimanov rayon təşkilatının sədri vəzifəsinə təyin olunması haqqında qərar qəbul olunub.

Hər iki şəxs çıxış edərək partiya rəhbərliyinə təşəkkürlərini bildirib və göstərilən etimadı layiqincə doğrultmağa çalışacaqlarını vurğulayıblar.





Ərazi bütövlüyü və suverenliyini bərpa edən ölkəmizin yeni dövrə qədəm qoyduğunu vurğulayan YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bu dönəmdə YAP yerli təşkilatlarının da üzərinə böyük məsuliyyət düşdüyünü, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin müəyyənləşdirdiyi, eləcə də partiyanın Nizamnamə və Proqramından irəli gələn vəzifələrin günün tələbləri səviyyəsində mütəşəkkil və operativ yerinə yetirilməsinin qarşıda duran əsas məsələ olduğunu diqqətə çatdırıb. YAP Mərkəzi Aparatının rəhbəri yeni təyin olunmuş sədrləri təbrik edərək onlara göstərilən yüksək etimadı doğruldacaqlarına inamını ifadə edib.

# Kardinal Klaudio Qucerotti: ”Biz müharibələrə rəğmən dostluğu təcəssüm etdirən platforma yaratmağa çalışırıq”

**Şəxsən mənim üçün Azərbaycan həmişə çox yaxşı və mehribanlıqla qarşılandığım bir ölkədir. İnanıram ki, şeyxlə (şeyxülislam Allahşükür Paşazadə - red.) demək olar ki, bir növ qohumluq əlaqələrim var.**

Bu barədə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçirilən Dünya dini liderlərinin qlobal Bakı Sammitində iştirak edən Müqəddəs Taxt-Tacın Şərq Kilsələri üzrə Dikasteriyasının prefekti kardinal Klaudio Qucerotti jurnalistlərə müsahibəsində bildirib.

Kardinal Qucerotti əlavə edib: ”O, (şeyxülislam Allahşükür Paşazadə - red.) dünən səhər yeməyi vaxtı sırf yanımda olmaq üçün otelə gəldi. Bu, mənim üçün böyük şərəfdir və çox xoşdur. Mənim pravoslav yepiskopu Aleksandrla da eyni münasibətim olub”, - deyə kardinal bildirib.

Müxtəlif inancların olduğu üçün ümumilikdə dinlərdən danışmağın çox çətin olduğunu qeyd edən K.Qucerotti deyib: ”Dünyada gündəlik həyatımızla sıx bağlı olan çoxlu dinlər var. Fərqli istiqamətə malik başqa dinlər də var. Amma bütün dinləri birləşdirən bir amil mövcuddur. Bu, həyat üçün çox güclü bir motivasiyadır. Belə bir narahat dünyada güclü imana malik olmaqla həyatda çox radikal seçimlər baş verəcəkdir.

Çox vaxt elə olur ki, bir din digəri ilə ziddiyyət təşkil edir. Bu, əksinə olmalıdır. Çünki birlikdə mövcud olan dinlər çox böyük gücü təmsil edir. Bu görüşün gözəlliyi ondadır ki, biz dinlərin təmsil etdiyi fərqliliklərdən danışmırıq. Bizi birləşdirən isə gördüyümüz dünyada yaşamaqdır və o, sadəcə olaraq, hissələrə parçalanır, onlardan biri də müharibədir. Müharibələrin və münaqişələrin olmasına baxmayaraq, dostluğumuzu yaşaya biləcəyimiz, göstərə biləcəyimiz bir platforma yaratmağa çalışanda, hər şey gözəl olur”, - deyə kardinal sözlərini yekunlaşdırıb.



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Bayden getdi, Tramp gəldi - bəs Ukrayna?

**“Haqlı sual ortaya çıxır, - balaca Ukrayna üçün az qala trilyard dollara yaxınlaşan bu qədər hərbi yardım paketi nəyə lazımdır və hara xərclənir?”**

ABŞ-da keçirilən növbəti prezident seçkiləri həm də Co Baydendən sonra onun ”qızıl əsəri” sayılan Ukrana müharibəsinin sonrakı gedişatını da gündəmə gətirib. Açıq şəkildə Qərbin Rusiya əleyhinə siyasi maraqları üçün ortaya atılan bu qanlı müharibə oyunu, artıq avropadakıların da səbrini tükəndirib. Rusiyaya qarşı bütün Qərb ölkələrinin Ukrayna cəbhəsində birləşməsi, müharibənin gedişatında heç bir əhəmiyyətli dəyişikliyə səbəb olmayıb. Əksinə, son bir həftədə Rusiya ordusu Ukraynaya aid olan yaşayış məntəqələrində irəliləməkdədir. Belə görünür ki, rəsmi Moskva Ukrayna müharibəsində danışıqlar və güzəşt barədə fikirləşmir. Rusiya Təhlükəsizlik Şurası sədrinin müavini olan Dmitri Medvedyev də Donald Trampın Ukraynadakı müharibəyə son qoymaq şansının olmadığını bildirib. D.Medvedyev qeyd edib ki, D.Tramp müharibəni dayandıra bilməz. Nə bir gündə, nə bir ayda. Onun dediyinə görə, D.Tramp prezident seçilsə də müvafiq sistemin qoyduğu qaydalardan kənar çıxa bilməyəcək. Keçmiş Rusiya prezidenti qeyd edib ki, D.Tramp Ukrayna münaqişəsini birbaşa həll etməyə risq edərsə, o zaman onu Con Kennedinin taleyi gözləyir.

Belə görünür Rusiya da D.Trampdan əlini tamamilə üzmüş vəziyyətdədir, ya da Ukrayna məsələsində heç bir güzəşt barədə düşünmür. Proseslərin belə əks istiqamətə gedişi, Rusiyanın D.Trampla bağlı mövqeyindəki açıq dəyişiklik Ukrayna müharibəsinin sülh və beynəlxalq hüquq çərçivəsində həllinə dair ümidləri də kölgə altına salır. Dmitri Medvedyevin məlum bəyanatı göstərir ki, Vladimir Putin Ukrayna məsələsində prezident seçilsə belə Donald Trampa da güzəşt etməyəcək. Əksəriyyətin Rusiya ilə yaxşı münasibətlərdə olduğu deyilən D.Trampın prezident seçilməsindən sonra bu hərbi münaqişənin başa çatacağı barədəki ümidləri də artıq puç olmağa başlayıb. Halbuki bir müddət bundan əvvəl Rusiya rəsmiləri bunun tam əksini deyirdilər.

Onlar D.Trampın hakimiyyətə gəlişi ilə Ukraynadakı gərginliyin tamamilə aradan qalxacağına ümidvar olduqlarını deyirdlər. Bəs indi nə oldu? Görünür ki, son bir ay ərzində Rusiya ordusunun güclü əks hücumları və Qərbin Rusiya əleyhinə yüzlərlə sanksiya qərarının heç bir işə yaramaması Moskvanı daha çox ruhlandırır. Həm də Kremldəkilər, onların dili ilə ifadə etsək ”xüsusi hərbi əməliyyatın” məhz Moskvanın planlaşdırdığı məqsədlərə nail olunmasına qədər davam etdirilməsini istəyirlər. Bu isə o deməkdir ki, bu ay ABŞ-da keçiriləcək prezident seçkilərinin nəticələri Ukrayna böhranına təsirsiz ötüşəcək. Çünki əgər V.Putin Medvedyevin dili ilə D.Trampla da heç bir razılıq əldə olunmayacağını inidən açıq şəkildə bəyan edirsə, deməli bu mənasız və sürüngən müharibə yalnız V.Putinin istəkləri reallaşandan sonra başa çata bilər. Həm də əksər nüfuzlu Qərb nəşrləri də bu müharibəni silah mafiyasının qanlı biznesi kimi təqdim edirlər. Diqqət edək: Hər həftə neçə-neçə Qərb ölkəsi Ukraynaya azı 10 milyon dollarlıq silah, texniki təchizat və maliyyə yardımı barədə rəsmi açıqlamalar verirlər. Üstəlik, mən hələ ABŞ, Almaniya, Fransa, Böyük Britaniya kimi NATÖ güclərinin milyardlıq hərbi yardım paketlərindən danışmıram. Haqlı sual ortaya çıxır,- balaca Ukrayna üçün az qala trilyard dollara yaxınlaşan bu qədər hərbi yardım paketi nəyə lazımdır və hara xərclənir? Bu ayrılan silah-sursat heç bir irəliləyiş olmayan lokal tipli hərbi əməliyyatda necə sərf edilib bitirilə bilər axı?

Üstəlik nəzərə alsaq ki, Ukrayna Prezidenti Vladimir Zelenski də açıq şəkildə Qərb mətbuatına açıqlamalarında elan edilən bu hərbi yardım və maliyyə dəstəyinin heç cüzi hissəsinin də onlara çatmadığını bəyan edirsə, o zaman Ukraynadakı qanlı müharibənin qaranlıq sirlərinə də işıq düşməyə başlayır. Artıq görünən odur ki, dünya gücləri Ukraynadakı qanlı bazarlığın tez başa çatmasında maraqlı deyillər. Ukrayna böhranı qaranlıq və qanlı düyün kimi hər gün bir qədər də çətinləşir.”

# Natiq Cəfərli Əli Kərimliyə təklif ünvanladı

Nə qədər əbləh, nə qədər axmaq birisi olasan ki, bütün ümidlərini və gələcəyə hesablanan arzularını kənar şəxslərin tutacağı mövqeyə və ya hansısa baş verə biləcək möcüzələrə bağlayasan. Bu, birbaşa özünə inamsızlığın, bacarıqsız və əhəmiyyətsiz birisinin olduğunun etirafıdır. Sadəcə, bu mənfi xüsusiyyətləri dilə gətirməyə cəsarət edilmir. Gözünü dikir kiminsə ağzına və ya ona ünvanlanan tezislərə ki, nəyi desin və hansı addımı atsın. Fəlakət ondadır ki, bu cür savadsız və kütbeyin məxluqlar daha çox siyasətdə meydan sulayırlar. Azərbaycanın dağıdıcı müxalifətinin fəaliyyətinə nəzər yetirsək, hər cür müəmmalı məsələlərə aydınlıq gətirmək olar. Məlum olar ki, bu siyasət dəllallarının heç birinin özlərinin müstəqil fikri və ideyası yoxdur. Ona görə də inkişaf edə bilmir və uzun illərdir ki, yerlərində sayırlar. Bəzən pafoslu fikirlər səsləndirib, iddialı və populist çağırışlar edirlərsə, bu, onların beynin məhsulu deyil, onlara kənardan təsirlər olunur. Hansı ki, həmin kənar qüvvələrdən maddi və mənəvi dəstək alırlar. Bir fakt ortaya qoyula bilməz ki, nə zamansa AXCP, Müsavat, Milli Şura, REAL kimi qurumların rəhbərləri milli və dövlətçilik maraqlarına uyğun gələn layihə ilə çıxış ediblər, mötəbər tədbirlərdə fikirlər səsləndiriblər. Yoxdur belə bir fakt. Hətta elə müxalif məxluqlar var ki, cəmiyyət açıq hörmətsizlik göstərməkdən çəkinmir. Misal olaraq REAL-ın katibi Erkin Qədirlinin sosial şəbəkə istifadəçisi olan tüfeyli bir məxluqun "siz parlamentə seçici dəstəyi qazanmaqla seçilmisiniz" əndrabadi sualına "yox" cavabını vermişdir. Adama deyən lazımdır əgər həqiqətən də seçici dəstəyi qazanmadan deputat seçilməmisənsə, nədən borzu-borzu qoz yemiş qaratoyuq kimi şeştlə gedib Milli Məclisdə layiq olmadığın yerdə əyləşirsən? Niyə deputat mandatından imtina etmirsən? Cəsarətin və qətiyyətin yoxdursa, bu, başqa söhbətin mövzusu ola bilər, ancaq az da olsa özünə hörmət etmək kimi xüsusiyyətin olmamış deyil. Əgər sonuncu xüsusiyyət də yoxdursa, qüsurlarını başa düşmək və nəzərə almaq olar.



## N.Cəfərli daha çox Robert Koçaryanın ofisinin rəhbəri Viktor Soğomonyana istinad edir

Görünən ondan ibarətdir ki, REAL-da reallıqdan uzaq məxluqlar bir-birini əvəz edirlər. REAL-ın keçmiş sədri Avropanın donor təşkilatlarına xoş gəlmək üçün Azərbaycana qarşı əsassız ittihamlar səsləndirib, ittihamlar irəli sürürdü. Məhz bu cür separatçı fəaliyyətinə və mövqeyinə görə 1 sentyabr 2024-cü ildə keçirilən parlamentə seçkilərdə seçicilər onu seçki dəstəyindən məhrum etməklə ciddi şəkildə cəzalandırdı. O da üzləşdiyi biabırçılığı rahatlıqla həzm edənlərdən olmadığını göstərmək üçün partiya sədrliyindən istefa verdi. Gözləmək olardı ki, REAL-a təyin edilən yeni sədr-Natiq Cəfərli İlqar Məmmədovun antimilli ünsürlərin qazanına xidmət edən fəaliyyətindən imtina etməklə sağlam, cəmiyyətin maraqlarına cavab verən siyasət aparacaq. Ancaq REAL-ın siyasi kursunda heç nə dəyişməyib. Yenə də "köhnə hamam köhnə tas". Yeni sədr N. Cəfərli təxribat xarakterli iqtisadi proqnozlarını, yanlış sosial təhlillərini ağına-bozuna baxmadan tirajlayır. Əksər təxribatçı iqtisadi təhlilləri Ermənistanda Azərbaycana qarşı revanşist mövqeləri və fəaliyyətləri ilə tanınan Paşinyana müxalif siyasi partiyaların iqtisadçılarının yazdıqları iqtisadi yanaşmalardır. Araşdırmalara əsasən demək olar ki, N.Cəfərli daha çox Robert Koçaryanın ofisinin rəhbəri Viktor Soğomonyana, bəzən isə Serj Sarkisyanın rəhbərlik etdiyi "Respublika" partiyasında təmsil olunan Vaaha Ovenesyana, Karen Ambarsumyana və "İrs" Partiyasının deputatı Zarui Postancyanın yazdıqlarına və paylaşımlarına istinad edir.Yəni erməni təxribatçılarının Azərbaycan haqqında sərsəmləmələrini qismən düzəlişlər etməklə Azərbaycan cəmiyyətinə sırımağa və öz ağılı ilə bununla siyasi divident qazanmağa ümid edir.

## Ə.Kərimli N.Cəfərlinin səmimiyyətinə inanmadığı üçün onun görüş təklifinə "hə" deməyə tələsmir

Azərbaycan cəmiyyəti kifayət qədər siyasi cəhətdən yetkin və iqtisadi, sosial proseslərlə bağlı geniş məlumata malikdir. Təbii ki, N.Cəfərlinin haradan qidalandığını da ölkə əhalisi bilir və görür. Ona görə də, erməni mətbəxindən istifadə etməklə siyasi dividentlər qazanacağını düşməsi onun xam xəyalları olaraq qalacaq. N.Cəfərlinin erməni "iqtisad"çılarına istinad edib, Azərbaycanın sosial-iqtisadi siyasəti ilə bağlı təhlillərini ifadə etməsi onun dolayısı ilə Ermənistanın revanşist siçovulları ilə əməkdaşlıq etdiyini göstərir. Bu isə vətənə xəyanətdir. Vətənə xəyanət edənləri isə hansı cəza gözlədiyini N.Cəfərli bilməmiş deyil. N.Cəfərli anlaqsız olsa da, İ.Məmmədov bu kimi reallıqları bilməmiş deyil. Görünür, İ.Məmmədov N.Cəfərlinin Ermənistandakı revanşçılarla əlaqələrə girməsinə göz yumub, onu gözləyən təhlükə barədə xəbərdar etməməklə tora salmaq və özündən asılı vəziyyətə salmağa çalışır. Nə də olmasa İ.Məmmədov Avropanın qaranlıq dairələrindən müəyyən bicliklər və siyasi tələlər qurmağı öyrənən şəxslərdəndir.

Bu arada verilən məlumatlara görə, N.Cəfərli İ.Məmmədovun qurduğu tora düşdüyünü anlamağa başlayıb. Ona görə, "yanlış yoldan çəkilmək işin yarısıdır" məsəlinə inanmaqla iqtisadi "təhlillər"inə və "analizlər"inə ara verməyə qərar verib. Hətta onun AXCP sədri Əli Kərimli ilə görüşmək və ondan müəyyən məsləhətlər almaq üçün cəhdlər göstərdiyi bildirilir. Lakin Ə.Kərimli N.Cəfərlinin səmimiyyətinə inanmadığı üçün onun görüş təklifinə "hə" deməyə tələsmir. Digər tərəfdən Ə.Kərimli İ.Məmmədov həbsdən çıxdıqdan sonra AXCP-REAL qarşıdurmasında N.Cəfərlinin necə idarə olunan çömcə olduğunu unutmayıb. Bununla belə Ə.Kərimli "siyasətdə əbədi dostlar olmadığı kimi düşmənlərində olmadığı" prinsipinə əsaslanmaqla N.Cəfərli ilə görüşə və ona öz "ağıllı məsləhətlər" ilə yanaşı gələcəkdə necə hərəkət etmək və hansı formada fəaliyyət göstərməyin yollarını başa sala bilər.

**İLHAM ƏLİYEV**

---

EKSPERTLƏ MÜSAHİBƏ

# "Hər gün təcrübəsiz sürücülərin sayının artdığını müşahidə edirik"

Nəqliyyat üzrə ekspert Eldəniz Cəfərovun SİA-ya verdiyi müsahibəni təqdim edirik:

***- Baş verən yol qəzalarında günah daha çox kimdədir? Piyada yoxsa sürücüdə?***

- Yola çıxan hər bir şəxs məsuliyyət daşıyır və hər kəs yol qaydalarına uyğun şəkildə davranmalıdır. Lakin ölkəmizdə sürücülərlə maarifləndirmə işi daha çox aparılıb, piyadalarla isə bu istiqamətdə ləngimələr var. Bunun əsas səbəbi isə "Yol hərəkəti haqqında" qanunda piyadalara daha çox üstünlük verilib və bu başadüşüləndir. Lakin bəzi piyadalar bundan sui-istifadə edir, bu isə ağır yol qəzalarına səbəb olur. Buna görə də hər kəs yola çıxdığı zaman məsuliyyət daşıyır və yol hərəkəti qaydalarını pozan piyadalarla bağlı cərimələr yüksəldilməlidir.










***- Ümumiyyətlə piyadalar onlar üçün nəzərdə tutulan yerdən deyil, digər yerlərdən yol keçməyə cəhd göstərirlər. Bu məsələyə necə baxırsınız?***

- Ölkəmizdə qəzalara görə yalnız sürücülərin cavabdeh olmasını "Yol hərəkəti haqqında qanun" belə tələb edir. Piyadaları məsuliyyətə cəlb etmək istəyiriksə, müvafiq qanunvericilikdə dəyişiklik etməliyik. Əks təqdirdə bizim üçün çox çətin olacaq.

***- Qəza şəraiti yaradan sürücülərin içərisində gənclər yoxsa daha təcrübəli sürücülər çoxluq təşkil edir?***

- Buna konkret olaraq cavab vermək çətindir. Təcrübəli olsa belə bilərəkdən qaydaları pozan sürücülər çoxdur. İki ilə qədər avtomobil idarə edən şəxslər təcrübəsiz hesab edilir. Onlar bilməyərək qaydaları poza bilərlər, lakin bu da onlara bəraət qazandırmır. Təəssüf doğuran məqam isə təcrübəli sürücülərin bilərək qayda pozmasıdır. Bu gün təhlükəsizlik kəməri taxmayan sürücülər taxan sürücülərə gülürlər. Bu biabırçılıqdır. Bu məqamlar birbaşa olaraq ictimai məsuliyyət məsələsidir.

***- Son vaxtlar qadın sürücülərin sayı çoxalıb. Həmin sürücülər yola çıxarkən ən çox nələrə diqqət etməlidir? Onlara nə kimi məsləhətləriniz var?***

- Sürücüləri heç bir halda qadın və ya kişi olaraq ayırd etmirəm, bunu doğru da hesab etmirəm. Yola çıxan hər bir kəs cinsindən, statusundan asılı olmayaraq bərabərhüquqludur. Qadın sürücülərin daha çox qəzaya səbəb olması fikri ilə də razılaşmıram. Burada problem qadın-kişi məsələsi deyil. Problem sürücülük mədəniyyətinin aşağı olmasıdır. Ölkəmizdə fəaliyyət göstərən bir çox sürücülük kursları formal xarakter daşıyır, burada kifayət qədər sürücülük dərsləri keçirilmir və sürücülük mədəniyyəti aşılanmır. Buna görə də hər gün təcrübəsiz sürücülərin sayının artdığını müşahidə edirik.

***- Bizim avtomobil yolları ilə bağlı təcrübəmiz də var. Bir müddət öncə yollar genişləndirildi, körpülər, yolötürücüləri və sair inşa edildi. Ancaq yenə də tıxaclardan qurtula bilmədik, əksinə, daha da artdı. Bu onu göstərir ki, yolları genişləndirmək problemin həlli deyil. Bəs nə edək?***

- Tıxacın köklü şəkildə həllini tapması məsələsi çətindir, bu yalnız mərhələli şəkildə baş tuta bilər. Eyni zamanda bu problem yol infrastrukturu ilə bağlıdır, maşın sayı ilə əlaqədar deyil. Şəhər mobilliyi prosesinə yeni başlamışıq. Bunun əsas səbəblərindən biri də iqlim dəyişmələri ilə bağlıdır. Bununla atmosferə buraxılan zərərli $CO_2$ karbon qazının emissiyası azaldılsın. Bunun üçün də şəhər mobilliyi həyata keçirilir və bu beynəlxalq təcrübədir.

***Səbinə Hüseynli***

# Azərbaycan radiosu - bir əsrə yaxın tarixi yol

1926-cı ilin 6 noyabr tarixində Azərbaycan radiosunun yaradılması ölkənin ictimai-mədəni həyatında əhəmiyyətli hadisəyə çevrildi. Bu yenilik minlərlə dinləyiciyə xoş ovqat bəxş etdi. Hər kəsin evinə yeni bir ab-hava daxil oldu. Bir əsrə yaxındır ki, insanlara yol yoldaşı olan Azərbaycan radiosu tarixi bir yol keçib. XX əsrin ən möhtəşəm kəşflərindən olan və hər gün insanlarla ünsiyyət yaradan, cəmiyyət həyatında əvəzsiz yer tutan radio yarandığı zamandan informasiya liderliyini qoruyub-saxlaya bilib. Neçə-neçə onilliklər arxada qalıb. Xalqın bir əsrə yaxın tarixi ilə birgə yol gələn Azərbaycan radiosu keşməkşli günlərin də, xoş soraqların da tarixini əbədiləşdirib. Sirli-soraqlı dünyamızdan bizlərə məlumatları çatdıran radiomuz bu illərdə, qərinələrdə olan tariximizin keşməkeşli, uğurlu zamandan dinləyicilərinə danışıb. Bəzən sevindirib, bəzən kövrəldib, bəzən də tariximizin dönəmində bizləri düşündürüb. Nələri bizə danışmayıb. Diqqətimizi ondan çəkməmişik. Axı əsrlərin tarixindən süzülüb gələn ulu babalarımızın yaşadığı zaman, bu günün həqiqətləri radiodan eşitdiyimiz məlumatlarda bizləri böyük bir xalqın keçdiyi yol ilə baş-başa qoyub. Xalqın maarifləndirilməsi, əxlaqi-estetik tərbiyəsi, məlumatlandırılması kimi təməl prinsipləri ni fəaliyyət məqsədinə çevirən radio istənilən məkanda dinləyicilərin dostu olaraq, hər nəslin müasirinə çevrilir.

## ƏN KƏSƏRLİ SİLAH

Qısa da olsa Azərbaycan radiosunun yaranma günündə şərəfli, zəngin tarixi yoluna nəzər salaq. Xalqı ilə hər zaman təmasda olan, ötən və yaşanılan hadisələri dinləyicisinə çatdıran Azərbaycan radiosu "Sabahınız xeyir olsun, əziz dinləyicilər", "Axşamınız xeyir olsun, hörmətli dinləyicilər", deyərək günün istənilən zamanında dinləyicilərinə yeni xəbərləri, xoş ovqatları çatdırmağa çalışıb. Tarixi dövrü vərəqlədikcə "Satira atəşiylə", "Ədəbiyyatın vəzifələri", "Radio saatı" kimi verilişlərin səsləndirilməsi ilə ilk, kövrək addımlarını atan radio qısa bir zamanda zəngin verilişlərin yaradıcısına çevrilir. Təbii ki, radioda yeni verilişlərin hazırlanması və yeniliklər yeni, istedadlı kadrların cəlb olunmasını tələb edirdi. Radionun ilk azərbaycanlı diktorları Azərbaycan Politexnik İnstitutunun tələbəsi İsmayıl Əlibəyov və Azərbaycan Dövlət Darülfünunun hüquq-iqtisad fakültəsinin tələbəsi Raya İmanzadə olurlar. Azərbaycan radiosunun inkişaf etdiyi sonrakı mərhələdə isə Fatma Cabbarova, Züleyxa Hacıyeva, Gültəkin Cabbarlı, Aydın Qaradağlı, Sabutay Quliyev, Ramiz Mustafayev kimi ustad diktorlar yetişirlər. Radioya peşəkar mütəxəssilərin yol açması Azərbaycan radiosunun gündəlik verilişlərinin həcminin artmasına gətirib çıxarır. İlk verilişlərin hazırlanmasında Azərbaycan ədəbiyyatı və incəsənətinin görkəmli xadimləri fəal iştirak edirdilər. Bədii və musiqili verilişlərin müəllifləri Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Səməd Vurğun, Hüseynqulu Sarabski, Bülbül, Mustafa Mərdanov kimi Azərbaycan mədəniyyətində yeri və çəkisi olan sənətkarlar olur. Qısa məsafədə radionun dinləyici auditoriyası da genişlənir və Bakıda 35 kilovat gücündə yeni radio stansiyasının işə salınması ilə Azərbaycan radiosunun verilişləri Qafqazda, Özbəkistanda, Türkmənistanda, hətta Qara dənizin şərq sahillərində eşidilir. 1940-cı ilin sonunda ölkə ərazisində radio nöqtələrinin sayı 51 minə çatır. 32 rayonda yerli radio verilişləri redaksiyaları fəaliyyətə başlayır.

Azərbaycan radiosu ilə dinc və təmiz səma altında yaşayan insanlara Böyük Vətən müharibəsinin elan olunmasını - gərgin, fövqəladə, acınacaqlı bir xəbəri ictimaiyyətə çatdırmaq nə qədər çətin olsa da, bu gerçəkliyi hamıya bəyan etdi. 1941-ci il iyunun 22-nə keçən gecə müharibənin başlanmasını Azərbaycan dinləyicilərinə diktor Zəhra Salayeva zirzəmidəki yarımqaranlıq bir otaqdan xəbər verir. Həmin zamandan 5 il müddətində Azərbaycan radiosunun işçiləri faşizmlə mübarizədə mikrofonu ən kəsərli silaha çevirirlər. Müharibə dövrünün tələblərinə uyğun olaraq radio buraxılışları çox qısa müddətdə hazırlanır, verilişlər gecə-gündüz ara vermədən yazılır və montaj edilirdi. Ağır müharibə dövrünün ən çox dinlənilən verilişi "Azərbaycan - cəbhə üçün"ü hər kəs böyük həyəcanla gözləyirdi. Əsas ağırlıq isə, təbii ki, "Son xəbərlər" redaksiyasının üzərinə düşürdü. Hər gün dinləyiciyə mühüm məlumatlar, dövlət qərarları 30 dəqiqə ərzində tərcümə edilərək, Azərbaycan dilində çatdırılırdı. Elə qələbə sorağını da Azərbaycan dinləyicisi radio vasitəsilə eşidir. Həmin dövrdə SSRİ rəhbərliyi radionun ictimai-siyasi, mədəni həyatda və faşizmə qarşı mübarizədə oynadığı böyük rolu nəzərə alaraq, 1945-ci il mayın 2-də xüsusi qərarla mayın 7-sini Radio Günü elan edir. Bu tarixi gün uzun illər boyu Azərbaycanda da bayram edilir. Amma tarixi ədalət qələbə çalır. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan radiosunun yaranma günü - noyabrın 6-sı "Azərbaycan Televiziya və Radio işçilərinin peşə bayramı" elan olundu.



## RADİODA HƏRBİ SENZORUN FƏALİYYƏTİ

Ötən əsri 70-ci illəri Azərbaycan radiosu üçün, xüsusilə əlamətdar olmuşdur. "Sabahınız xeyir", "Axşam görüşləri", "Bulaq", "Natəvan" qızlar klubu, "Lirika dəftərindən", "Muğam saatı", "Arzu" musiqi poçtu, "Yazıçı və zaman", "Mahnı şəhəri gəzir", "Teatr mikrofon qarşısında" kimi verilişlər radionun nufuzunu daha da yüksəldir. Bu verilişlərdə xalqın ruhu, onun folklor irsi, tarixi mədəniyyəti kimi dəyərlər öz əksini tapır. Milli maraq və düşüncədən qaynaqlanan bu verilişlərin hazırlanması Ulu Öndər Heydər Əliyevin radioya ayırdığı diqqətdən irəli gəlirdi. Heydər Əliyev radionun böyük təbliğat mexanizmi olaraq aşıladığı dəyərlərin mahiyyətini müdrikcəsinə anlayırdı. Hər bir ailənin sevilən verilişi olan "Bulaq" belə milli verilişlərin ilk qaranquşu oldu. Ulu Öndərin xeyir-duası ilə fəaliyyətə başlayan bu radiotoplu ilk dəfə Azərbaycan efirinə şifahi nitqin ən koloritli, milli, etnoqrafik, xalq düşüncə tərzi ilə cilalanmış nəfəsini gətirdi. Radio dalğaları ilə Şərqə yayımlanan "Bulaq" xaricdəki soydaşlarımızın arzu və istəklərini vahid dil, düşüncə, ortaq Vətən duyğularını ifadə edən məktubları efirdə səslən-dirdi. Ulu Öndərin göstəriş və məsləhəti əsasında daha sonra "Ozan" teletoplusu yaradıldı və tezliklə ümumxalq məhəbbəti qazandı. Radionun yaxın keçmişinə yazılan tarixi də Onun prinsipial mövqedən çıxış etdiyini bir daha göstərir. 1988-ci ildə başlanan Dağlıq Qarabağ münaqişəsi zamanı radio Azərbaycan xalqının maraqlarından çıxış etdi. Bu, 1990-cı ilin yanvarında özünü daha da qabarıq şəkildə göstərdi. Sovet imperiyası təkcə xalqı deyil, həm də Azərbaycan radiosunu susdurmağa cəhd edir. Mənbələrdə yazılır: "...Televiziyanın enerji blokunu partladıb sıradan çıxarmaqla yanaşı, radionun əməkdaşları da efirdən uzaqlaşdırılır. Radioda hərbi senzor fəaliyyət göstərirdi. Matəm içində olan ölkəmizə komendantın həqiqətdən tamamilə uzaq, iftira dolu məlumatlar ötürülürdü. Lakin həmin faciəli günlərdə Azərbaycan radiosunun xaricə yayım redaksiyası 20 Yanvar faciəsinin baş verməsini bütün təfərrüatı ilə dünyaya çatdıra bildi".

Qarabağ uğrunda erməni işğalçılarına qarşı savaşın başlanılması ilə radio hər gün Müdafiə Nazirliyinin məlumatlarını yayırdı. Dinləyicilərdə vətənpərvər hissləri gücləndirən "Açıq-aşkar", "Xudafərin", "Sözün düzü", "Baxış bucağı", "Dünya", "Pillə", "Çevrə", "Radio-atmaca", "Molla Nəsrəddin", "Yol", "Yuva", "Vaxt", "Dan yeri" kimi verilişlər hazırlanır, hərbi marşlar səsləndirilirdi. Azərbaycanın işğal olunmuş torpaqları, torpağın bölünməzliyi uğrunda canını sipər edən vətən oğullarının mübarizliyi və s. kimi fikirləri daim bizlərə çatdırıb Azərbaycan radiosu.

44 günlük Vətən müharibəsindən xəbərləri Azərbaycan televiziyası radiosundan aldıq. Azərbaycan radiosu xoş müjdələrlə bizləri sevindirdi. Azərbaycan Ordusunun uğurlu əməliyyatlarından bizə məlumat verdi radiomuz. Qələbə sorağını verdi. Füzulinin, Cəbrayılın, Zəngilanın, Şuşanın və başqa ərazilərimizin işğaldan azad olunma xəbərini çatdırdı. Qəhrəman oğullarımızın şücaətindən danışdı. Zəfərimizi dinlədikcə sevinc göz yaşımızı saxlaya bilmədik. Bizim yol yoldaşımız olan bu gün öz sözünü deyə bilən, öz fərqli dəsti-xətti ilə seçilən, ən güclü təbliğat sisteminə çevrilən radiomuz 98 ildir Azərbaycan dinləyicisi ilə yol gəlir.

## 30 İL SONRA AZƏRBAYCAN TELEVİZİYASI

Azərbaycan televiziyası radiodan 30 il sonra - 1956-cı il fevralın 14-də fəaliyyətə başladı. İlk veriliş günü ekranda gənc aktrisa Nəcibə Məlikova göründü. Çıxışını "Göstərir Bakı!" kəlməsi ilə açan Nəcibə Məlikova tamaşaçıları televiziyanın fəaliyyətə başlaması münasibətilə təbrik edib. Həmin gün ekranda "Bəxtiyar" bədii filmi nümayiş etdirilib. 1957-ci ildən Azərbaycan televiziyası efirə həftədə 5 dəfə çıxmağa başladı və verilişlərin gündəlik həcmi 2 saat 20 dəqiqəyə çatdırıldı. 1962-ci ildə gündəlik efirə çıxan proqramların həcmi 7 saatadək artmışdı. 70-ci illərdən etibarən Azərbaycan televiziyasının gündəlik veriliş və proqramlarının yayım həcmi 10 saata, 80-ci illərdə 18 saata çatdırıldı. 2005-ci ilin yanvarından isə televiziya 24 saatlıq fasiləsiz yayıma keçdi.

1956-cı ildə Bakı televiziya studiyası və Radioinformasiya idarəsi ayrılıqda fəaliyyət göstərirdi. 1970-ci ildə televiziya Dövlət Televiziya və Radio Verilişləri Komitəsi statusu aldı. 1991-ci ildə komitə şirkətə çevrildi. 2005-ci ildən isə Azərbaycan Prezidentinin sərəncamı ilə şirkət "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə çevrildi.

1988-ci ildə Dağlıq Qarabağ münaqişəsinin başlanması Azərbaycan televiziyası üçün əsl sınağa çevrildi. Kommunist Partiyasının nəzarəti altında fəaliyyət göstərdiyindən və SSRİ daxilində başlayan münaqişəyəhazır olmadığından Azərbaycan televiziyası informasiya siyasətini qura bilmirdi. Separatçıların Xankəndidəkeçirdiyi fasiləsiz mitinqlər barədə qısa xəbəri Azərbaycan televiziyası yalnız 10 gündən sonra - hökumətin icazəsi ilə "Qarabağda yaranmış vəziyyət" adı altında efirə verdi. Bakıda başlayan kütləvi nümayişlər zamanı da meydandan birbaşa yayıma TV iki gün gec başladı. Bu isə AzTV rəhbərliyinin Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirovun iradəsinin əleyhinə çıxması nəticəsində mümkün oldu. Azərbaycan televiziyasının əməkdaşları da xalqla birlikdə Qorbaçovun addımlarına qarşı çıxaraq Azərbaycan Konstitusiyasına, beynəlxalq hüquq normalarına əməl edilməsini, erməni separatçılarının qanunsuz hərəkətlərinin qarşısının alınmasını tələb edirdi. Azərbaycan televiziyası ilə çıxış edən siyasi icmalçılar Kremlin Azərbaycana qarşı apardığı siyasətin mahiyyətini, respublikamızda yaranmış idarəolunmaz ictimai-siyasi vəziyyəti, xalqın haqlı tələbləri irəli sürdüyünü cəsarətlə dilə gətirirdilər. Moskvadan gələn emissarların Azərbaycan televiziyası vasitəsilə Kremlin Bakıya qoşun yeritməyəcəyi və fövqəladə vəziyyət elan etməyəcəyi barədə vədlərinə baxmayaraq, 1990-cı il yanvarın 19-da saat 19:26-da Azərbaycan televiziyasının enerji bloku partladıldı. Azərbaycan televiziyasının yayımını yalnız yanvarın 28-də bərpa etmək mümkün oldu.

## ƏN GÜCLÜ TƏBLİĞAT SİSTEMİ

2004-cü ilin fevralından başlayaraq AzTV-nin proqramlarının Avropa ölkələrində daha keyfiyyətli yayımı təmin edildi. Bu məqsədlə Teleradio İstehsalat Birliyinin mütəxəssisləri teleqüllə kompleksində yeni rəqəmsal TV - Up-link stansiyasını quraşdırdılar. İndi Azərbaycan televiziyasının verilişləri həmin stansiyadan Avropaya "Hot Bird", Şimali Amerikaya "Galaxy 25", Asiyaya isə "Azerspace-1" peykləri vasitəsilə yayılır. 2007-ci ildə Avropaya yayımın texniki müvafiqliyinə görə Azərbaycan Televiziyası "Avropa keyfiyyəti" medalına layiq görülmüşdür.

Sonrakı illərdə Space TV, İTV kimi kanallar fəaliyyətə başladı. Müasir dövrümüzdə Azərbaycan televiziyası və radiosu yeni dövrünü yaşayır.

2020-ci il dekabrın 31-dən etibarən, radio-televiziya yayımının təşkili Şuşa, Ağdam, Bərdə rayonları, eləcə də ətraf yaşayış məntəqələrində bərpa edilib. Şuşa Radio-Televiziya Yayım Stansiyasında rəqəmli TV yayım avadanlığı, anten-fider sistemi və 10 TV kanalın peykdən qəbulu üçün baş stansiya avadanlığı qurulub, istismara verilib. Artıq Kəlbəcər şəhərində 17 metrlik yeni metal qüllə istismara verilib. Bununla da Kəlbəcər şəhəri və rayonun ətraf 15 kəndində 8 TV və 1 radionun yayımı təmin olunub. Qubadlı Xanlıq Radio-Televiziya Yayım Stansiyasının mövcud 50 metrlik qülləsindən istifadə olunmaqla 8 TV və 2 radio proqramının Qubadlı şəhəri və Qubadlı rayonunun 12 kəndində (Əlibəyli, Qoturbulaq, Xocahan, Qapanlı, Muğanlı, Hal, Xanlıq, Hənzəli, Əfəndilər, Qəzyan, Saray, Yuxarı Mollu) yayımı təmin olunub. Bu və ya digər ərazilərdə də radio-televiziya yayımı bərpa edilib. Bu gün Azərbaycan televiziyası və radiosu yeni dövrünü yaşayır. Öz sözünü deyə bilən, öz fərqli dəsti -xətti ilə seçilən, ən güclü təbliğat sisteminə çevrilən radiomuz, televiziyamız illərdir ki, Azərbaycan tamaşaçıları ilə yol gəlir. Bu yol hələ neçə-neçə onillikləri əhatə edəcək, xalqın milli tarixi, gələcəyi, Azərbaycanın dinamik inkişafı, uğurları və beynəlxalq mövqeyi ilə bağlı bizə çox xəbərləri çatdıracaq.

***Zümrüd BAYRAMOVA***

*Xəzər dənizinin sahilində Azərbaycanın ən qədim şəhərlərindən biri olan Lənkəran yerləşir. Bu şəhər cənubun möhtəşəm incisi və Azərbaycanın ən gözəl guşələrindən biridir. Avropadan Asiyaya və əksinə gedən karvanlar həmişə Lənkərandan keçirdi. Bundan əlavə, şəhərin dəniz kənarında yerləşməsi də buna səbəb olub. O zaman ticarət limanına çevrildiyindən burada ticarət və sənətkarlıq inkişaf edib.*

# Dünyanın gözündə LƏNKƏRAN



## Bəs, gəlin görək Lənkəran dünyanın gözündən necə görünür?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Lənkəran torpaqları münbitliyi ilə məşhur olan zəngin torpaqlardır. Azərbaycan beş coğrafi rayondan ibarətdir ki, bunlardan Lənkəran rayonu Azərbaycanın cənubunda yerləşir. Cəlilabad, Masallı, Yardımlı, Lerik, Astara və Lənkəran şəhərlərinin ətraf ərazisi də Lənkəran rayonunu təşkil edir. Bu ərazi ölkə ərazisinin 7%-ni əhatə edir. Sahəsi 6070 km$^2$ olan Lənkəran rayonunun cənubunda və qərbində İran, şərqində Xəzər dənizi var.

27 Cənub-Şərqi eyniadlı rayonunun (Lənkəran rayonu) 28 inzibati mərkəzi olan Lənkəran Azərbaycanın ən böyük şəhərlərindən biridir. Azərbaycanın ən gözəl və tarixi yerlərindən biri olan Lənkəran şəhəri 38 şimal və 40 şərq enliklərinin kəsişməsində, Xəzər dənizi boyunca yerləşir. Dənizin cənub-qərb sahilində, Lənkəran çayının Xəzər dənizinə töküldüyü yerdə yerləşir. Lənkəran iqtisadi rayonunda 8 şəhər, 6 rayon, 13 qəsəbə, 156 kənd inzibati ərazi vahidi və 642 kənd yaşayış məntəqəsi var.



Rayon Xəzər dənizi sahilində -27 m və Talış dağlarının Kömürköy zirvəsində 2493 m yüksəklikdə olmaqla Lənkəran düzənliyi və Talış dağlarından ibarət iki hissəyə bölünür.

## Əhalisi

Lənkəran şəhərinin əhalisinin təxminən üçdə ikisini Azərbaycan türkləri, əhalinin üçdə birini talışlar təşkil edir və 2020-ci il siyahıyaalınmasına əsasən, əhalinin sayının 52.800 nəfərdən çox olduğu bildirilmişir. Lənkəranda ana dili olan Azərbaycan dili ilə yanaşı talış dilindən də istifadə olunur. Talışlar Azərbaycanın yerli xalqıdır. Talışlar daha çox Azərbaycanın cənubunda Lerik, Astara, Masallı, Yardımlı və Lənkəran rayonlarında yaşayır, burada məskunlaşıblar. Talış dili Hind-Avropa dil qrupunun İran ailəsinə aiddir.



## İqlimi

Azərbaycanın Xəzər dənizi sahilində rütubətli tropik iqlim müşahidə olunur. Cənubi Lənkəran düzənliklərində illik yağıntının miqdarı 1200-1400 mm-ə çatır. 35 Lənkəran rayonu çox zəngin coğrafi, kənd təsərrüfatı, iqlim və turizm perspektivinə malikdir. Onun potensialı regionun əhəmiyyətini daha da artırır.

## Kənd təsərrüfatı

Mülayim-isti iqlimi, münbit torpağı, suyu və insan resursları ilə zəngin kənd təsərrüfatı həyatına malikdir.

Lənkəranda Azərbaycanda istehsal olunan sitrus meyvələrinin və çayının hamısı, tərəvəzin yarıdan çoxu, həmçinin üzüm, taxıl və bir çox digər qiymətli məhsullar istehsal olunur.

Payızda ətirli limon, naringi, kivi, feyxoa, loquat və kumquat bağları görülməyə dəyər. Dağlıq ərazilərdə heyvandarlıq edilir.

Hirkan Milli Parkı və Qızılağac Milli Parkları Lənkəran bölgəsinə daxildir. Bütün Azərbaycan kimi Lənkəran rayonu da inkişaf baxımından çox sürətlə irəliləyir. Rayonun qərbində və cənub-qərbində Talış dağları kimi yüksəkliklər var.

## Turizm

Şərqdən Xəzər dənizi ilə əhatə olunduğundan və zəngin müalicəvi mineral sularına malik olduğu üçün dağ, kempinq və ov turizmi, sahildəniz turizmi və spa turizmi baxımından yüksək potensiala malikdir.



## Təbii sərvətləri

Lənkəran termal bulaq turizmi tərkibində isti və soyuq mineral suları, azotlu və mineral suları ehtiva edir.

Oynaq, ginekoloji, dəri və ürəkdamar xəstəliklərindən əziyyət çəkənlər, tərkibində metan olan Meşesu və İbadı mineral su bulaqlarında vanna qəbul etməklə müalicə oluna bilərlər.

Rütubətli və subtropik iqlimi ilə Lənkəranda qışlar kifayət qədər isti, yaylar isə quru və isti keçir. Burada ən soyuq ay yanvardır (3-4 °C), Ən isti ay iyuldur (45 °C). Orta illik temperatur 25,1 °C-dir.

Lənkəran öz iqliminin səxavəti ilə dünyanın ən məşhur kurort mərkəzlərindən biridir və zümrüd dərələri ilə əhatə olunmuş Hirkan Milli Parkı və Qızılağac Qoruğu Lənkəranın məşhur təbiət muzeyləridir. Qırqovullar, kəkliklər, qu quşları, ağ qartalların və digər 270 nadir quş növünün yaşadığı Lənkərandadır.

Bitki növlərinin mövcudluğu ilə yanaşı, qiymətli ağacları ilə məşhurdur. Azərbaycanın faydalı bitki növləri ilə zəngin olan dörd rayonundan biridir. Lənkəranın dağlıq ərazilərindədir və ədəbiyyatda Qafqaza endemik kimi daxil edilmişdir. Lənkəranın dağlıq ərazilərində iki növ bitkiyə rast gəlinir.

## Mədəniyyət

"Nənələr" Folklor Xalq Qrupu Lənkəranda fəaliyyət göstərir. Lənkəran 2011-ci ildə Azərbaycanın Folklor Paytaxtı seçilmişdir. Multikultural quruluşlu olaraq çay, düyü və sitrus festivalları ilə Cənubi Qafqazın kənd təsərrüfatı və qastronomiya mərkəzi kimi yerli istehsalçılar, aşpazlar, biznes və qastronomiya peşəkarların bir araya gəldiyi sosial və iqtisadi həyata töhfə verməklə milli və beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir.

YUNESKO-nun Qastronomiya Şəhəri Lənkəran əlverişli coğrafi mövqeyi, iqlimi və özünəməxsus təbiəti, zəngin mədəniyyəti və folkloru, qonaqpərvər və səxavətli münasibəti ilə uzunömürlülər diyarı kimi tanınan bu bölgənin özünəməxsus adət-ənənələri ilə qarışmış ağız sulandıran mətbəxi qurmanların mütləq ziyarət etməli olduğu yerdir.

***Lənkəran xörəklərində istifadə olunan endogen tərkiblər***

## Ləvəngi

Azərbaycan mətbəxinin bolluğundan, ləzzətli balıqlardan, xüsusən də San balıqlarından, məşhur Ləvəngi yeməklərindən, balıq və toyuq əti də daxil olmaqla müxtəlif növ ləvəngilərdən həzz ala bilərsiniz. Ləvəngi içliyini təşkil edən inqrediyentlərdən hazırlanır, xalq tərəfindən istehlak edilən yeməkdir.

Lənkəranın balıq ləvəngisi Azərbaycan mətbəxinin ən xüsusi nümunələrindən biridir.

Ardı Səh. 11

# Dünyanın gözündə LƏNKƏRAN

Əvvəli Səh. 10

Ən dadlı balıq ləvəngisi yalnız Xəzər dənizində rast gəlinən kütümdən hazırlanır. Tərkibi qoz ləpəsi, qırmızı soğan, lavaşana, duz, istiotdan ibarətdir. Həmçinin, əgər balığın cüyü (kürü) varsa doldurma maddələrinə kürü əlavə edin və qarışdırın.

Hazırlanması: Balıq pulcuqlarından və bağırsaqlarından təmizləndikdən sonra yuyulur və qurudulur. İçinə və üstünə duz və istiot səpin. Ləvənginin içliyi hazırlanır. Ən ləzzətli ləvəngi təndirdə, kömür üzərində yeməklərin bişirildiyi silindrik gil sobada hazırlanır. Lənkəranda bütün balıq yeməkləri ilə birlikdə masada mütləq narşərab verilir. Ləvəngi məşhur yeməklərindən birinə çevrilməyi bacarmışdır.

Lənkəranda dadılması lazım olan digər yemək də boranı plovudur. Bir balqabağın içi oyulur, sonra düyü, quru ərik və şabalıd əlavə edilir. Fisincan, çölmə kabab, qoz kükusü, umaç halvası və səməni halvasının dadını unutmaq olmaz.







## Kütüm (Ziyad) balıq

Ölkə əhalisinin yarısının kənd təsərrüfatından dolanışığını təmin edən Azərbaycanda Xəzər sahillərində balıqçılıq və dünya kürü istehsalının əhəmiyyətli hissəsini təşkil edən kürü istehsalı mühüm gəlir mənbəyidir. Azərbaycan dünyada kürünün böyük miqdarda istehsalını əhatə edir və eyni zamanda ən qiymətli kürülərdən biridir. Xəzər dənizində balıqdan əldə edilir.



## Palçıq turşu

Bir çox yeməklərə, xüsusən də ləvəngiyə hakim olan ləzzətdir. Bu məhsul xüsusən alça ilə edilir.

Tərkibi və hazırlanması: Tam yetişmiş alça çeşidlənir və yuyulur. Alüminium olmayan bir qazana qoyun. 4-5 kq alça üçün ? stəkan su əlavə edin. Meyvələr tamamilə yumşaq olana qədər bu qaynadılır. Sonra süzgəcdən keçirilir, yalnız toxumları qalır. Yaranan məhlul yenidən qaynadılmaq üçün qazana əlavə edilir. Tomat pastası konsistensiyasına çatana və içindəki su yox olana qədər qarışdırın. 2,5-3 xörək qaşığı duz əlavə edin. (Duz da əlavə edin. Bu turşunun ömrünü uzadacaq. Qarışdırıb bişirib ocağı söndürün. Soyumağa buraxılır və sonra şüşə qaba doldurulur. Bu şəkildə 3-4 il sərin yerdə saxlanıla bilər. Bir çox xörəklərdə, xüsusən də ləvəngidə istifadə edilən yerli tərkib hissəsidir.

## Alça lavaşana

Xüsusilə ləvənginin üstünə və içinə şoraba səpmək üçün reyhandan hazırlanan lavaşanalarda istifadə etmək olar: bu məqsədlə lavaşana ılıq (isti) suda yumşalana qədər saxlanılır. Zövqə görə duz və istiot əlavə edilərək istifadə edilir. Lavaşana hazırlamaq üçün müxtəlif meyvələrdən istifadə etmək olar. Meyvələr su ilə qaynadılır. Toxumları və qabıqları ayırmaq üçün süzgəcdən keçirilir və parça, nimçə və s. İncə bir təbəqəyə tökülür və qurumağa buraxılır. Qurudulmuş lavaşanlar nimçədən çıxarılır və digər tərəfə qurudulmaq üçün nimçəyə qoyulur. Daha bir gün saxlanılır. Yeməkdə istifadə etmək üçün duzlanır, kəsilir və saxlanılır.





## Nar şərabı

Yetişmiş nar meyvələri yığılır. Nar dənələri yuyulub parçalanaraq çıxarılır. Narın içindəki ağ təbəqə dənələrə qarışmamalıdır. Alınan nar dənələri güclü sıxılır, ələkdən keçirilir və şirəsi süzülür. Narın tumları və şirəsi ayrılır. Alınan məhlul orta odda qaynadılır. Qaynadıqdan sonra aşağı atəşə qoyun. Üzərində əmələ gələn köpüklər mütləq atılmalıdır. Konsistensiyaya çatana qədər arabir qarışdıraraq 4-5 saat aşağı istilikdə bişirin. Butulkaya doldurulur. Soyuduqdan sonra istifadəyə hazırdır. Tək və ya yeməklə xüsusilə ət və balıqları souslamaq üçün istifadə olunur.

## Sarıkök

Lənkəran mətbəxində sarı rəng verən ədviyyatlardan bol istifadə olunur. Bunlar sarı kök və zəfərandır, Balıq, ləvəngi və Lənkəran külçəsi kimi bir çox xəmir məmulatlarında əsas ədviyyat kimi istifadə edilən sarı kök yaraları sağaltmaq və iltihabları aradan qaldırmaq üçün də istifadə olunur.

Zəfəran: 2019- cü il məlumatlarına görə zəfəran istehsal edən ölkələrin istehsalı kəmiyyətə görə reytinqdə 9-cu olan Azərbaycandır. Şorbalardan plovlara qədər, əsas yeməklərdən tutmuş desertlərə qədər geniş çeşid zəfəran istifadə olunur.

Zəfəran beynəlxalq bazarlarda son dərəcə yüksək iqtisadi dəyəri olan və keçmişdə olduğu kimi bu gün də böyük tələbat olan bir bitkidir. Bu ədviyyat şəklindədir. Lənkəranın qonşusu olan İran dünyanın zəfərana olan tələbatını ödəyən ilk ölkədir.

## Çay

XX əsrin əvvəllərində 1912-ci ildə çay zavodu Azərbaycana gətirildi, 1932-ci ildə Lənkəranda çayçılıq bölməsi yaradıldı və 50 dekar çay əkildi. Bundan əlavə, ölkədə ilk dəfə 1937-ci ildə Lənkəran çay fabriki açıldı. Geniş

Torpaqda çayçılıq rayonun yerli simvoluna çevrilib.



Lənkəran çayı güclü dəmləmə tərzinə və ”ormud” adlanan xüsusi armud formalı dəminə malikdir. Qara çay Lənkəranda əsas içki kimi dibçəklərdə verilir. Ormud-stekan sayəsində çay (armudşəkilli fincan) asanlıqla soyumur və şüşənin kənarları isti deyil.

Qara çay şəkərsiz, lakin bol şirniyyat, quru meyvə, limon, yerli meyvələrdən hazırlanmış şəkər siropları və ya mürəbbələrlə verilir. Lənkəranda nəhəng samovar və çay fincanı fiqru demək olar ki, şəhərin simvoludur. Lənkərana xas şəkər kublarından hazırlanmış Qandi külçə xəmiri, orqanik çaya xasdır.

## Feyxoa ağacı

Feyxoanın vətəni Cənubi Amerikadır və Myrtaceae fəsiləsinin bir növüdür. Bunlar qoz boyda meyvələrdir. Yaşıl rəngdədir və toxumu kivi toxumuna bənzəyir. 25-30-a qədər toxum əmələ gəlir. Mülayim iqlimi olan bölgələrdə yetişdirilir. Feyxoa Azərbaycanda da yetişir. Onun ətri çiyələk, banan və kivi qarışığıdır. Zeytun yarpaqlarına bənzəyən yarpaqları olan çoxillik koldur. Feyxoa bir meyvə olmaqla salatlardan dondurmaya qədər hər şeydə istifadə olunur; Mürəbbələrdən tutmuş desertlərə qədər fərqli dad və ətir əlavə edir. C vitamini,



yod və kaliumla zəngindir. Lənkəran torpaqlarında bitən feyxoa meyvəsindən əsasən çay və kompot kimi istifadə olunur.

## Abqora

”Abqora” üzümün şirəsini qaynamadan sıxaraq əldə edilən məhsuldur.

Abqoranın hazırlanması: Yetişməmiş (xam) üzümlər çeşidlənir və yuyulur. Suyu alüminium qablarda çay daşları ilə əzilərək çıxarılır. Şüşə butulkalarda mütləq qoyulur, qapaq bağlanmır, ağzı cuna ilə örtülür. Qalıq süzülür. 40 gün günəşdə saxlamaqla bişirməyə icazə verilir. Bu müddətdə əmələ gələn köpüklər atılır. Yenidən süzülür və şüşə butulkada soyuqda saxlanılır. 80 kq üzümdən təxminən 15 litr abqora alınır. Tərəvəz yeməkləri də daxil olmaqla bir çox yeməklərdə istifadə etmək olar. Abqora xüsusilə ət və quyruq yağlı yeməklərin ağır olmasının qarşısını alır.

***Ayşən Vəli***

# Qlobal istiləşmə: bizi yaxşı heç nə gözləmir

***Uzun illərdir ki, alimlər qlobal istiləşmə səbəbindən planetdəki canlıların yarısının öləcəyi barədə xəbərdarlıq edirlər. Zaman keçdikcə iqlimin dəyişəcəyi və getdikcə daha çox anomaliyaların meydana çıxacağı barədə proqnozlar özünü doğruldur. Bunlar niyə baş verir və bununla bağlı nə etmək olar? Adi bir insan bu anomaliyanı düzəldə bilərmi? Biz dünyanı xilas edə biləcək iqtidardayıq? Ümumiyyətlə, insan faktoru bu anomaliyanın harasında qərarlaşıb?***

Qlobal istiləşmə prosesi artıq başlayıb, orta iqlim göstəriciləri daim dəyişir. Hesablamalara görə Yer artıq "istixana qazları" adlanan sənaye emissiyaları səbəbindən 1,2 dərəcə istiləşib. Proses 1880-ci ildən, yəni sənaye inqilabından əvvəl başlayıb. İstixana qazları sənayedən əvvəl də var idi. Bunlar vulkan püskürmələri, meşə yanğınları və hətta canlı orqanizmlərin nəfəs alması-dır, yəni bu normal bir prosesdir. Amma sənayenin təsiri o qədər böyüdü ki, proses daha sürətlə getdi. Əslində 1, 2 dərəcə o qədər çox olmasa da, alimlər dörd il əvvəl, əlavə istilik və enerji baxımından temperaturun 1,1 dərəcə artmasının saniyədə dörd Xirosima bombası partlayışına bərabər olduğunu bildirmişdilər.







## İldən-ilə daha betər...

Emissiyaların artmasının səbəbləri kömür, neft və qazın yanması, meşələrin qırılması, heyvandarlıq məhsullarının artımı, gübrələrdən azot oksidi emissiyaları, avadanlıq və məhsullardan flüorlu qazların çıxmasıdır. 1980-ci illərdən bəri hər onillik əvvəlkindən daha isti olur. Ümumiyyətlə, alimlər planetin temperaturunun 2 dərəcəyə qədər artmasının fəlakətə səbəb olacağını deyirlər. Kənd təsərrüfatında problemlər olacaq, bəzi heyvanlar tələf olacaq, ümumiyyətlə, istiləşmə bütün ekosistemlərə təsir göstərəcək. Planetin müxtəlif yerlərində hava anomaliyaları daha da pisləşəcək ki, bu da insanların həyatına təsir göstərəcək. Alimlər gözləyirlər ki, dünyanın bəzi yerlərində yağış az, bəzilərində daha çox, üçdə birində isə eyni miqdarda yağış yağacaq, lakin daha güclü və qısamüddətli olacaq. Belə anomaliyalar quraqlığa və daşqınlara səbəb olacaq. Necə ki, biz bunu artıq müşahidə edirik.

İndi problemlərdən ən çox əziyyət çəkən əsasən kasıb ölkələrdir. BMT-nin məlumatına görə, son on ildə hər il orta hesabla 23,1 milyon insan təbii fəlakətlərə və onların nəticələrinə görə öz evindən, yurdundan köçmək məcburiyyətində qalıb. Bu, həmçinin daha çox insanın yoxsulluq həddinə düşmə riskini artırıb. BMT-yə görə, qlobal istiləşmə səbəbindən hamının gec-tez qarşılaşacağı problemlər çoxdur. Bu problemlər tropik və subtropiklərdə kənd təsərrüfatı üçün təhlükənin olması, əhalinin yağış sularından asılı olduğu bölgələrdə yağıntının azalması, tropik və subtropik bölgələrdə malyariya və digər xəstəliklərdən ölüm halları artması, buzlaqların əriməsi və müvafiq olaraq dəniz səviyyəsinin yüksəlməsi, bu da sahilyanı ərazilərin su altında qalmasına səbəb olması, meşələrin təhlükə altında olması və s.-dir.

Zamanla qlobal istiləşmə artacaq və açıq havada işləmək dözülməz hala gələcək. İnşaatçılar, dənizçilər, yanğınsöndürənlər və kənd təsərrüfatı işçiləri əziyyət çəkəcəklər. Temperaturun yüksəlməsi ilə əlaqədar olaraq insanlar kondisioner və ventilyatorlardan daha çox istifadə etməli olacaqlar və elektrik enerjisi haqqı bahalaşacaq. Çiçəkləmə dövrü daha uzun olacaq, bu da allergiya və astma kimi tutmaların artmasına səbəb olacaq. Temperatur yüksəldikcə daha çox insan hipertermiya (yüksək bədən istiliyi) və günvurmadan əziyyət çəkəcək.

Hazırda təbiətdəki bitkilərin dörddə üçü tozlanma üçün böcəklərin köməyindən istifadə edir, lakin həşərat növlərinin 41%-i yox olmaq təhlükəsi altındadır, bu da tozlanma prosesinin azalacağı və təbiətin yaşıllıq nisbətinin düşəcəyi deməkdir. Güclü tufanlar və güclü yağıntılar su ehtiyatlarının, o cümlədən içməli su mənbələrinin çirklənməsinə səbəb olacaq. Temperatur yüksəldikcə bəzi təyyarələr istiyə tab gətirə bilməyəcək. 2015-ci ildə alimlər hesablayıblar ki, həddindən artıq istilər təyyarələrin qalxma çəkisini məhdudlaşdıra bilər.

## Dünya təhlükənin fərqindədirmi?

Qlobal istiləşmə istiqamətində ekoloqlar orta temperaturun dəyişməsini qeyd etməyə başladıqları 1975-ci ildən bəri kifayət qədər fəal mübarizə aparılır. İqlim dəyişikliyi ilə bağlı ölkələrin işini tənzimləyən ilk sənəd 1992-ci ildə qəbul edilib - BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası bundan əlavə, 1997-ci ildə istixana emissiyalarının azaldılması və ya sabitləşdirilməsini nəzərdə tutan Kioto Protokolu qəbul edilib. 2015-ci ildə 200-ə yaxın ölkə Paris İqlim Sazişini imzalayıb. Hər iki sənədin əsas məqsədi 2100-cü ilə qədər planetdə orta temperaturun sənayedən əvvəlki səviyyədən 2°C-dən çox artmasının qarşısını almaq və qlobal istiləşməni 1,5°C-də saxlamaq üçün mümkün olan hər şeyi etməkdir.

Qarşıya qoyulan məqsədlərə görə 2030-cu ildən karbon emissiyaları olmadan yeni bina və tikililər tikmək, elektrik enerjisinin mövcudluğunu artırmaq və kömür zavodlarından istifadəni azaltmaq, 60%-ə qədər elektriklə işləyən avtomobillər istifadə etmək şərtdir. 2035-ci ildə satılan elektrik yük maşınlarının payını 50%-ə çatdırmaq, bütün sənaye elektrik mühərrikləri və soyutma sistemləri üçün ən yüksək enerji səmərəliliyi sinfini təmin etmək öhdəlikdir. 2040-cı ildən etibarən elektrik enerjisi istehsalından sıfır emissiyaya nail olmaq, 2020-ci ilə nisbətdə neftin yalnız 50%-ni istehlak etmək, aşağı emissiyalı aviasiya yanacaqlarının payını 50%-ə qədər artırmaq əsas prinsiplərdəndir.

Sənədlərin öhdəliklərinə görə 2050-ci ilə qədər dünya elektrik enerjisinin 90%-dən çoxu bərpa olunan enerji mənbələrindən istifadə etməklə istehsal edilməli, bunun da 70%-dən çoxu külək və günəş enerjisinə əsaslanmalı, ağır sənayenin 90%-dən çoxu ümumiyyətlə istixana qazları buraxmamalıdır. Həmçinin bina və tikililərin 85%-dən çoxunu karbon neytrallığı üçün hazırlamaq hədəflənir.

Müxtəlif ekspertlər, ekoloq alimlər yaşıllaşdırma və daha yaşıl bir dünya üçün müxtəlif variantlar təklif edirlər: avtomobillərdən velosipedlərə keçid, birdəfəlik qablardan və plastik məhsullardan istifadəni dayandırmaq, tullantıları azaltmaq, elektrik enerjisinə qənaət etmək, dəbə uyub geyimləri tez-tez yeniləməmək, elektrikli nəqliyyat vasitələrinə üstünlük vermək, bərpa olunan enerji mənbələrinə keçmək, nağdsız ödənişdən istifadə etmək, daha çox bitki qidaları yemək, xarab olan cihazları atmaq əvəzinə təmir etməklə tullantıları azaltmaq.

## Azərbaycan iqlimin dostu olmaq yolundadır

Dünyaya əhəmiyyətli nisbətdə təbii enerjilərindən ixrac edən ölkəmiz də məsuliyyətlərinin fərqindədir. Bu il ölkəmizdə keçirilən COP29 tədbiri də bu məsuliyyətin bir hissəsidir. Hazırda Azərbaycanda əsas ekoloji problemlər su ehtiyatlarının çirkləndirilməsi, sənaye müəssisələri və avtonəqliyyatın atmosferi çirkləndirməsi, kənd təsərrüfatı üçün yararlı torpaqların sıradan çıxması, tullantıların tələb olunan səviyyədə idarə olunmaması, biomüxtəlifliyin qorunmaması, meşələrin, flora və faunanın qorunmamasıdır. Sadalanan problemlərin əksəriyyəti 30 ilə yaxın işğal altında olan torpaqlarımızda qeydə alınıb.

Azad olunan ərazilərin ekoloji tarazlığının, fauna və florasının yenidən bərpa edilməsində böyük işlər görülür. İşğaldan azad edilən ərazilərə köçürülən sakinlərə daha təmiz, daha saf bir mühit yaradıldı, kökü kəsilməkdə olan vəhşi heyvanların nəsli artırıldı, yoxa çıxmaqda olan bitki nümunələri çoxaldıldı. Həmçinin, Qarabağda, eləcə də bütün ölkəmizdə alternativ enerjidən istifadə yolunda ciddi addımlar atılır. Günəş və külək alternativlərindən, habelə su vasitəsi ilə enerji almaq üsullardan istifadə edilir. Bu istiqamətdə həyata keçirilən işlər zamanla sürətlənir, tətbiq sahələri genişləndirilir.

Bir tərəfdə biznes və maliyyə qazancları dayanır, digər tərəfdə dünyanın gələcəyi və insan faktoru. Azərbaycan dünyanın ekoloji tarazlığının qorunması, insan faktorunun zərər görməməsi naminə hətta öz təbii sərvətlərindən - neftindən və qazından da imtina etməyə hazırdır, ölkəmiz bərpaolunan enerji qaynaqlarını artırmaqla tələb olunan enerji ehtiyatını təmin etmək yolunda daha çox hədəflənib.

Ümumiyyətlə, hər bir insanın, dövlətin bu gün etdiyi seçimlər gələcək üçün çox vacibdir, əvvəlcə bunu dərk etməliyik. İllər keçdikcə təbii resurslar həmişəkindən daha qiymətli olur, çünki tükənir. Buna laqeyd yanaşmağı dayandırmağın və dünyanı qorumağın vaxtıdır. Daha sağlam gələcək və daha azad insan naminə...

***Lalə Mehralı***

***Məqalə, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin "İqlim dəyişikliyi və insan hüquqları" elan etdiyi müsabiqəyə təqdim edilir.***

# "Ər arvadın, arvad da ərin soyadını qəbul edə bilər"

*Vəkil detalları açıqladı*



”Ad, soyad, ata adının dəyişdirilməsi ilə bağlı Nazirlər Kabinetinin qərarı var. Soyad sonluğunu dəyişmək üçün Asan Xidmət Mərkəzlərinə, qeydiyyat şöbələrinə müraciət etməklə soyadın sonluğunu dəyişmək mümkündür”. Bu sözləri SİA-ya açıqlamasında vəkil Tural Həsənli deyib. O bildirib ki, evlənərkən soyadın dəyişdirilməsi məcburi deyil: ”Ər arvadın, arvad da ərin soyadını qəbul edə bilər. Bu, hüquqidir, məcburi deyil. Hətta boşandıqdan sonra əvvəlki soyadlarını qayıda bilərlər. Ailə Məcəlləsində bu, nəzərdə tutulub.

Azərbaycan Respublikasının 18 yaşına çatmış hər bir vətəndaşının ərizəsinə əsasən onun mövcud soyadının sonluğuna dəyişiklik edilir. 18 yaşına çatmayanların soyadlarının sonluğuna dəyişiklik onların valideynlərinin və digər qanuni nümayəndələrinin (övladlığa götürənlərin, qəyyumun və ya himayəçinin) ərizəsi əsasında həyata keçirilir. Hər iki valideynin soyadının sonluğu dəyişdirildikdə, 18 yaşına çatmayanların soyadlarının sonluğu da dəyişdirilir. 10 yaşına çatmış uşağın soyadının sonluğu yalnız onun razılığı ilə dəyişdirilir. Soyadın sonluğuna dəyişiklik edilməsi ilə əlaqədar müvafiq akt qeydlərində bu barədə qeyd edilir və yeni şəhadətnamələr verilir. Soyadın sonluğuna dəyişiklik edilməsi haqqında ərizə vətəndaşın seçdiyi yer üzrə qeydiyyat şöbəsinə və ya konsulluq idarəsinə verilir. Müvafiq akt qeydləri (ərizə verən şəxsin doğumu, nikahı, övladlarının doğumu və sair) ərizəni qəbul etmiş qeydiyyat şöbəsində və ya konsulluq idarəsində olduqda, soyadın sonluğuna dəyişiklik orada edilir və əvvəllər verilmiş şəhadətnamələr ləğv edilməklə, ərizə verən şəxsə yeni şəhadətnamələr verilir. Ərizə verən şəxsin doğumu haqqında və barəsində tərtib edilmiş digər vətəndaşlıq vəziyyəti akt qeydləri başqa qeydiyyat orqanında olduqda, ərizə 3 gün müddətində həmin orqana göndərilir.




Akt qeydlərinin olduğu yerin qeydiyyat şöbəsi və ya konsulluq idarəsi 15 gün müddətində daxil olmuş ərizə əsasında həmin akt qeydlərinə zəruri dəyişiklik edir, dəyişikliyin əsasını və tarixini göstərməklə müvafiq qeydlər aparır. Bu qeydlər onu aparan şəxsin imzası və möhürlə təsdiq edilir. Ərizə verən şəxsə təqdim edilməsi üçün yeni şəhadətnamə ərizəni qəbul etmiş qeydiyyat şöbəsinə və ya konsulluq idarəsinə 3 iş günü müddətində göndərilir. Ərizəni qəbul etmiş qeydiyyat şöbəsi və ya konsulluq idarəsi şəhadətnamənin daxil olması barədə ərizə verən şəxsə 3 iş günü müddətində məlumat verir və ərizə verən şəxs qeydiyyat şöbəsinə və ya konsulluq idarəsinə müraciət etdikdə, şəhadətnaməni imza etdirməklə ona təqdim edir. Qeydiyyat şöbəsi və ya konsulluq idarəsi soyadın sonluğuna dəyişiklik edilməsi haqqında daxili işlər orqanlarının müvafiq qurumlarına, hərbi vəzifəlilərin və çağırışçıların soyadının sonluğuna dəyişiklik edilməsi barədə isə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölməsinə 7 gün müddətində məlumat verir. Ərizəni qəbul etmiş qeydiyyat şöbəsi və ya konsulluq idarəsi, akt qeydi başqa qeydiyyat şöbəsində və ya konsulluq idarədə olduqda isə həmin orqan 3 gün müddətində akt qeydlərinə dəyişiklik edilməsi barədə onların ikinci nüsxələrinin saxlandığı Vətəndaşlıq Vəziyyəti Aktlarının Reyestri Xidmətinə bildiriş göndərir.




Qeydiyyat şöbəsi və ya konsulluq idarəsi tərəfindən soyadın sonluğuna dəyişiklik edilməsinə şəxs həm yetkinlik yaşına çatanadək, həm də yetkinlik yaşına çatdıqdan sonra yol verilir. Soyadın sonluğuna yetkinlik yaşına çatdıqdan sonra növbəti dəfə dəyişiklik edilməsinə yol verilmir. Azərbaycan Respublikası vətəndaşlarının öz adını, ata adını və soyadını dəyişdirməsinə 18 yaşına çatdıqdan sonra yol verilir. Adın, ata adının və soyadın dəyişdirilməsi qeydiyyat şöbəsi və ya konsulluq idarəsi tərəfindən həyata keçirilir. Adın, ata adının və soyadın növbəti dəfə dəyişdirilməsinə (ər-arvadın birinin digərinin soyadını qəbul etməsi və ya nikahdan əvvəlki soyadına qayıtması halları istisna olmaqla) bu Qaydaların 6.24-6.28-ci bəndlərində müəyyən olunmuş hallarda yol verilir. Ərizə verən şəxsin istəyi ilə ata adı onu tərbiyə etmiş şəxsin razılığı ilə həmin şəxsin adı ilə dəyişdirilir. Ərizə verən şəxs cinayət mühakimə icraatına şübhəli və ya təqsirləndirilən şəxs qismində cəlb edildiyi dövrdə, onun götürülməmiş və ya ödənilməmiş məhkumluğu olduqda, habelə barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxs olduqda adın, ata adının, soyadın dəyişdirilməsinə yol verilmir. Adın, ata adının və soyadın dəyişdirilməsi haqqında ərizə (1 nömrəli əlavə) vətəndaşın seçdiyi yer üzrə qeydiyyat şöbəsinə, xarici ölkədə daimi və ya il ərzində 182 gündən artıq müvəqqəti yaşayan Azərbaycan Respublikasının vətəndaşı tərəfindən isə konsulluq idarəsinə verilir”.



”Müvafiq icra hakimiyyəti orqanı uşaq 18 yaşına çatana qədər onun adının dəyişdirilməsinə, eləcə də soyadının digər valideynin soyadına dəyişdirilməsinə, valideynlərin birgə xahişinə əsasən və uşağın mənafeyini nəzərə alaraq icazə verə bilər.

Valideynlər ayrı yaşadıqda və uşaqla birlikdə yaşayan valideyn ona öz soyadını vermək istədikdə müvafiq icra hakimiyyəti orqanı bu məsələni digər valideynin rəyini nəzərə almaqla və uşağın maraqlarından asılı olaraq həll edir. Digər valideynin olduğu yeri müəyyənləşdirmək mümkün olmadıqda, o valideynlik hüquqlarından məhrum edildikdə, fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə, eləcə də üzürsüz səbəbdən uşağı saxlamaqdan və onun tərbiyəsindən yayındıqda həmin valideynin rəyini nəzərə almaq məcburi deyil. Uşaq öz aralarında nikahda olmayan şəxslərdən olubsa və atalıq qanunvericiliklə nəzərdə tutulmuş qaydada müəyyən olunmayıbsa, müvafiq icra hakimiyyəti orqanı uşağın maraqlarını əsas tutmaqla onun soyadının, ananın bu xahişlə müraciət etdiyi anda daşıdığı soyada dəyişdirilməsinə icazə vermək hüququna malikdir. 10 yaşına çatmış uşağın adı və soyadı yalnız onun razılığı ilə dəyişdirilə bilər” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***



# Türklərdən ”e”, ruslardan ”a” alıb, ”ə”ni güdaza verdik...

**Mətanət MƏMMƏDOVA**

**“Ə” hərfi Azərbaycan əlifbasının digər hərfləri kimi çox gərəkli səslərdən biridir. Onsuz yazılı ədəbiyyat və danışıq dilimizin varlığı mümkün deyil. İşlətmədiyimiz halda əlifbanın tamlığı itər və biz səhvə yol vermiş olarıq. Və anlaşılmaz bir yazı və danışıq forması meydana çıxmış olar. Lakin təəssüflər olsun ki, müasir dövrdə artıq ”ə” hərfini çox sayda insan yazıda istifadə edir. Və fikrimizin əksinə olaraq bir-birilərini də çox yaxşı ”anlayırlar”.**

Müasir gənclərimizin əksər hissəsi artıq ”ə” hərfindən vaz keçib onu ”e” ilə əvəz edib. Xüsusilə sosial şəbəkə yazışmalarında gənclər ”ə” səsindən istifadə etmir. Məsələn, ”necesen” (necəsən), ”gel”(gəl), ”birlikde” (birlikdə), ”ela” (əla), ”ele” (elə), ”ders”(dərs), ”gedek”(gedək) və onlarla ”ə” ilə yazılmalı olan söz.

Necə oldu axı biz ”ə” səsindən vaz keçdik? Nə üçün? Bizi buna kim vadar etdi? Əslində istənilən məsələdə kimsə insanı nəyə isə vadar edə bilməz. Bu, bizim öz məsuliyyətsizliyimiz, ana dilinə, əlifbamıza olan etinasız münasibətimizdəndir. 70 il sovet dövründə ana dilimizə yüzlərlə rus dilində sözlər əlavə etməmişdikmi? O qədər alışmışıq ki, buna, elə indinin özündə də şifahi nitqimizdə istər-istəməz o sözlərdən istifadə edirik.

Müstəqillik illərində isə Türkiyə ilə gedib-gəlişimiz, onlarla telekanallara tamaşa etməyimiz nəticəsində ”ə”miz onların ”e”si ilə əvəz olundu. Görəsən bizim ana dilinin, əlifbanın günahı nədir ki, hər dövrdə ona bir zərbə endiririk...

Hazırda ”ə” tək ”e” ilə deyil, həm də ”a” hərfi ilə imtahana çəkilir. ”A” hərfini isə rus dilindən mənimsəmişik. Bu gün gənc ata-analar, orta yaş qrupunda olan nənə-babalar artıq ”ə” hərfini gözdən çıxarıb bir kənara atıb və onun yerinə ”a” hərfini qoyublar. Məsələn, uşaqlara verdiyimiz Əli, Əhməd, Əsəd, Əminə, Əntiqə, Əzizə, Nərmin, Nəzrin, Həsən, Səriyyə, Gülnarə, Elnarə, Samirə, Tahirə, Yeganə, Nəsibə və onlarla belə adların tərkibindəki ”ə” ”a” ilə əvəz olunur. Düşünürəm ki, bu insanların əlindən gəlsə, elə uşaqların şəxsiyyət vəsiqəsinə də adlarını öz ifadə etdikləri kimi yazdırarlar. Lakin qanunvericilik buna icazə vermir.

Beləliklə, ”ə” ”e” və ”a” səsləri ilə əvəz edildikcə, ana dilinə vurduğumuz zərbələrin əsla fərqinə varmadan həyata davam edirik. Lakin nədənsə bunu düşünən çox az sayda insan var ki, biz beləliklə haraya gedirik? Ana dilini qorumaq həm müasirlik, həm inkişaf, həm bu gün, həm də sabahdır. Bəs buna əməl edirikmi?

Biz öz dilimizi bəyənməyib ona əlavələr etdikcə, bu dilin gələcəyini məhv etdiyimizi nə üçün dərk etmirik? Ali məktəblərdə təhsil alıb müəlim, həkim, mühəndis və digər sahələrin mütəxəssisi olacaq gənclər sabah çalışdıqları iş yerində rəsmi yazışmalarda ”ə” hərfindən necə istifadə edəcəklər? Axı onlar artıq illərdir ki, ”ə”ni ”e” kimi yazmağa alışıblar. Olmazdı ki, əlifbamıza riayət edərdik? Axı bunun qarşısı vaxtında alınsaydı, bu həddə gəlib çıxmazdı. Eləcə də ”ə”lərin yerini alan ”a”lar. Nə üçün biz Azərbaycanda yaşaya-yaşaya övladımızı Əli yox Ali, Samirə yox, Samira çağırmalıyıq? Nəyi bəyənmirik, nəyi özümüzə yaraşdırmırıq? ”Ə” hərfinimi? Yoxsa onun yoxluğu bizi aristokrat edir, xəbərimiz yoxdur...

Öz dilinə, əlifbasına hörmət etməyən, məsuliyyətlə, qayğı ilə yanaşmayan insanın aristokratlığından nə çıxar? Bunu düşünməyə dəyər...

# COP və Ermənistan

2023-cü ilin dekabrında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının rəhbər orqanı COP29 sammitinin Azərbaycanda keçirilməsini təsdiqləyib. İqlim konfransı noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək və postsovet məkanında ilk olacaq. İlkin hesablamalara görə, sammit zamanı Bakıya 70-80 min xarici qonaq gələcək. BMT-nin Bakıda keçirilən iqlim konfransı ərəfəsində Amnesty International hüquq müdafiə təşkilatı Azərbaycanda insan hüquqlarının pozulmasına diqqət çəkib və forum iştirakçılarını bu problemi diqqətdən kənarda qoymamağa çağırıb. Qarabağın keçmiş liderlərinin azad edilməsi məsələsini Bakıda keçirilən COP29 iqlim konfransı ilə əlaqələndirməsi isə bu təşkilatın qərəzindən xəbər verir. Ermənistanın bu tədbirdə iştirakı isə yersizdir. Ermənistan parlamentinin spikeri Alen Simonyan noyabrın 4-də jurnalistlərlə keçirdiyi brifinqdə bildirib ki, erməni məhbuslar geri qaytarılmadan Ermənistanın Bakıda keçiriləcək COP29-da iştirakını məqsədəuyğun hesab etmir. "İrəvanın Bakıda keçiriləcək COP29-da iştirakla bağlı hələlik bir qərarı yoxdur. Ermənistanın burada niyə iştirak etməli olduğunu, tədbirin ölkəyə nə verəcəyini və hansı səviyyədə təmsil olunacağımızı müzakirə etmək lazımdır. Müzakirə edəcəyik, bunun dövlətimizə lazım olub-olmadığını anlayacağıq, uyğun olmasa, getməyəcəyik. Düşünmürəm ki, məhbusları geri qaytarmaq imkanı olmasa, biz tərəddüd edəcəyik, amma gözləyək", o bildirib.











Bir neçə gün əvvəl Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan parlamentdə ölkənin 2025-ci il büdcəsinin müzakirəsi zamanı demişdi ki, Ermənistanın konfransda iştirakı hazırda təsdiqlənməyib. Politoloq Andrias Qukasyan və siyasi şərhçi, STEP1 jurnalının redaktoru Naira Ayrumyanın fikrincə, Ermənistanın Bakıdakı COP29-da iştirakı vacib deyil. Andrias Qukasyan bildirib ki, hazırda Nikol Paşinyan məhbuslardan kimin azad ediləcəyi ilə bağlı bazarlıq edir. Politoloq Ermənistan rəhbərliyinin İrəvanda COP29 keçirməkdən imtina etməsini və Bakıda keçirilməsinə razılıq verməsini böyük səhv hesab edir. Konfransı məhbus problemi ilə əlaqələndirmək isə onun fikrincə, "qeyri-qanunidir, alçaqdır və Ermənistan hakimiyyəti üçün heç bir bəhanə yoxdur".

Bu, bir daha təsdiq edir ki, Ermənistanda bir qrup insan hələ də regionda nələrin baş verdiyini kifayət qədər dərk etmir. COP-dan istifadə edərək bir dövlətin cinayətkarlar barədə verdiyi qərara təzyiq göstərməyə çalışırlar. Separatçılıq bütün dünyada qanunsuz əməl sayılır. Bir ölkənin ərazi bütövlüyünə qəsd etmək, terrorçuluq fəaliyyəti ilə məşğul olmaq ən ağır cəzaya layiqdir, qanunsuz silahlı birləşmələr yaratmaq, həmin qüvvələrdən qanuni hökumətə qarşı çıxış etmək, uzun illər bölgəni terror, narkotik vasitələrin yetişdirilməsi laboratoriyasına çevirmək bağışlanmaz cinayət əməlidir. Buna görə, həmin şəxsləri heç bir ölkədə bağışlamazlar və Azərbaycan da həmin ölkələr sırasındadır.

Arkadi Qukasyan, Bako Saakyan, Arayik Arutyunyan və qondarma qurumun digər üzvlərinin rəhbərlik etdikləri cinayətkar dəstənin törətdikləri cinayətlər sadalamaqla bitməz. 1988-ci ildən başlanan və 2023-cü ildə "tabutuna son mismarın vurulduğu" separatçılıq və onun terrorçu ələbaşıları bir gün qanunlar qarşısında cavab verməli idilər. Dünyanın heç bir ölkəsi bu qanunsuz qurumu tanımırdı, heç Ermənistanın özü də Qarabağdakı özünü elan etmiş "dqr"ə beynəlxalq subyekt kimi baxa bilmirdi. Çünki, İrəvan beynəlxalq hüququn, BMT-nin norma və prinsiplərinin nədən ibarət olduğunu çox yaxşı bilirdi və əks təqdirdə bunun bədəli çox ağır ola bilərdi.

Tutaq ki, Arkadi Qukasyanı bütün məsuliyyətdən azad etdik, bəs onun rəhbərlik etdiyi cinayətkar, terrorçu dəstə tərəfindən minlərlə azərbaycanlının öldürülməsinə görə kim cavab verəcək, Reyqanmı, ata-oğul Buşlarmı, Klintonmu, yoxsa Barak Obama, bəlkə Tramp? Bəlkə, bu quldur dəstəsinin törətdikləri qanlı cinayətlərə görə Fransanın prezidentləri Mitteranı, Jak Şirakı, Sarkozini, Olandı, Makronu dar ağacına çəkək? Axır kimsə bu cinayətlərə görə cavab verməlidir, əks təqdirdə 30 minə yaxın azərbaycanlının qanı yerdə qalmış olar. Ermənilərin Qərbdəki ğaları hər şeyi unudun, barışın, həm də cinayətkarları buraxın. Onlar da gedib törətdikləri soyqırımlarının mükafatı olaraq Ermənistanın milli qəhrəmanı adını alsınlar.

Atalar məsəlidir, "itin kəlləsini xonçaya qoydular, diyirləndi düşdü". Ermənistanı "adam yerinə" qoyduqca üstümüzə gəlir, bizə şərt qoyur. Ermənistan COP29-a bilərəkdən gəlmir. Gəlib nə deyəcək? Deyəcək ki, Vedinin Arazdəyən kəndində ABŞ-ın maliyyə dəstəyi ilə ekologiyaya böyük həcmdə ziyan vurmaq üçün inşa etmək istədiyimiz zavodun tikintisini Azərbaycanın təkidli tələbi ilə bağlamaq zorunda qaldıq. Yoxsa, bu günə qədər kimya zavodlarından axıdılan zəhərli tullantılar səbəbindən mənsəbi Araz çayı olan Oxçuçayda bir dənə də balıq və digər canlılar qalmadığından bəhs edəcəkdi ermənilər? Ermənistan rəhbərliyinin Bakıda keçiriləcək COP29-a gəlməməsinin bəhanəsi çoxdur. Əgər cinayətkarları azad etsən növbəti sifariş Qarabağa heç bir şərt qoyulmadan ermənilərin qaytarılması, bir az daha irəli getsələr status məsələsi, daha sonra isə qondarma qurumun tanınması olacaq.

Siyasi cəhətdən yetkinləşməmiş, mədəniyyəti, əxlaqı, keçmişi və nəhayət gələcəyi olmayan bu sürünün adı ermənidir. 1988-ci ildən 2023-cü ilə qədər Azərbaycan ərazilərində törətdikləri cinayətləri, qanlı hadisələri, soyqırımlarını, əsirlərimizin başlarına açdıqları dəhşətləri, hələ də izsiz-soraqsız itirdikləri minlərlə azərbaycanlını, "əcdadlarımızın yaşadıqları ərazilər" deyib Qarabağda və ətraf rayonlarda kənd və şəhərlərimizin darmadağın edilməsini, xarabalığa çevirmələrini unudan ermənilər Azərbaycanın bütün dünya tərəfindən tanınan torpaqlarından bu yerlərin əsl sahiblərini - azərbaycanlıları əsir-yesir günündə necə qovduqlarını nə tez unutdular? Erməniləri başa düşdük, bəs bütün dünyanı mikriskopla izləyən və bu münaqişədə "aktiv" vasitəçilik missiyasını yerinə yetirən iri dövlətlərə nə deyək, hansı adı qoyaq. Qarabağdan qaçan azərbaycanlıların əksəriyyəti özünü və ailəsini güclə, güllə yağışı altında qonşu rayonlara çatdıra bilmişdilər. Bütün var-yoxlarını itirmişdilər, tək canların götürüb qaça bilmişdilər. Bu hadisə cəmi 30 il bundan qabaq olmuşdu. Ermənilər isə Qarabağdan Azərbaycan dövlətinin bütün səylərinə baxmayaraq öz xoşları ilə tərk ediblər. Videoçəkilişlər, fotolar, sənədlər var. Öz maşınlarında, heç bir təhlükə hiss etmədən aid olmadıqları torpaqlardan gedirdilər. Əksəriyyətinin heç Qarabağda doğulmadığı, Ermənistan hakimiyyətinin və erməni diasporunun qanunsuz məskunlaşdırdıqları hər kəsə bəlli idi. Üçtərəfli bəyanatdan sonra Rusiya sülhməramlılarının tələm-tələsik daşıyıb Qarabağa doldurduğu "ermənilər"in kimliyi də gizli deyildi. Əksəriyyəti Rusiyada evi olan ermənilər idi, bu ölkənin vətəndaşı idilər. Sülhməramlıların Qarabağda tələm-tələsik "rus icması" yaratması da bu faktın doğru olduğunu sübut edir.

## Qarabağdan qovulan azərbaycanlılar

Azərbaycanlıların 30 il əvvəl, ermənilərin isə təxminən 30 il sonra Qarabağı tərk etməsinin fərqinə, formasına, dəhşətinə, vəhşiliyinə diqqət edin. Hansı fərqi gördünüz? Məgər, ABŞ, yaxud Fransa, eləcə də Qərb ölkələri bunu görmür. Bu gün ABŞ Konqresinin Nümayəndələr Palatası, Avropa Birliyinin Parlamenti Azərbaycana qarşı "etnik təmizləmə", "insan haqlarının qorunması (oxu: ermənilərin haqqının qorunması - müəllif) kimi əsassız iddialarla Azərbaycana qarşı sanksiyalar tətbiq etmək istəyirlər. Ermənistanın törətdikləri vəhşilikləri isə görməzdən gəlirlər.

## Öz istəkləri ilə köçən ermənilər

COP29 əslində dünyanın tədbiridir. Azərbaycanın yox, dünyanın problemlərini həll etmək istəyən dünya birliyi ölkəmizin ev sahibliyi ilə bir araya gəlmək üçün toplaşırlar. Azərbaycanda keçirilən COP29-a gəlmək, yaxud gəlməmək ölkələrin öz işidir, istənilən qərar o ölkənin ayağına yazılır, dünyanın probleminə necə yanaşdığını göstərir. Tədbirin Bakıda keçirildiyindən istifadə edib cinayətkarların buraxılmasını tələb etmək cahillik əlamətidir.

***V.VƏLİYEV***

# Sergey Markov: "Kimin seçilməsindən asılı olmayaraq ABŞ-ın Qafqaz siyasəti dəyişməyəcək"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*






**Siyasi Araşdırmalar İnstitutunun (Rusiya) direktoru Sergey Markov "Moskva-Baku" portalına müsahibəsində İrəvanın Azərbaycana qarşı sülhsevər addımlarının həqiqi, yoxsa sadəcə siyasi gediş olduğunu şərh edib. Politoloq eyni zamanda ABŞ-da keçirilən prezident seçkilərinin nəticələrinin Cənubi Qafqaza təsiri haqqında da danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.**

***- Sergey Aleksandroviç, baziləri deyir ki, İrəvanın müəyyən səhvləri var, amma Azərbaycanla münasibətlərin normallaşdırılması məsələsində sülhsevər addımlar da atır. Bunlar həqiqətən dinc addımlardır, yoxsa hələ də siyasi manipulyasiya və ya aldadıcı hərəkətdir?***

- Hər ikisi. Ermənistan üçün dinc addımlar mütləq lazımdır. Xüsusi səbəblərə görə doğrudur. Ermənistana Azərbaycanla sülh müqaviləsi lazımdır ki, Azərbaycan və Türkiyə tərəfdən blokada götürülsün, Ermənistan normal ticarət edə bilsin. Amma İrəvan ikinci Qarabağ müharibəsi başa çatdıqdan sonra siyasətini elə qurur ki, Azərbaycan və Türkiyə ilə daim "bazarlıq" edir. Bu isə hakimiyyətdən asılı olmayaraq Ermənistan siyasətində ənənəvi olan, ölkəni və onun liderlərini məhv edən özünəinam və tamahkarlığın nəticəsidir.

Xatırladığımız kimi, Ermənistan bu sahədə hər şeyini itirməmişdən əvvəl İrəvana Qarabağ problemini həll etmək təklif edilmişdi. Amma Ermənistanda hamı bazarlıq edirdi. Və sonda hər şeylərini itirdilər. "Balıqçı və Balıq haqqında" nağılındakı kimi, sonda heç nəyi qalmadı.

Ermənistan əvvəllər düşünürdü ki, Rusiya ona kömək edəcək və Azərbaycanla vuruşacaq. Və bu günə qədər Ermənistanda öz uğursuzluğunda Moskvanı günahlandırırlar. Amma günahkar Moskva deyil, tamah və axmaqlıqdır.



İndi də Ermənistanda Qərbin onlara kömək edəcəyinə inanırlar. Eyni zamanda, ümumiyyətlə, İrəvanın Azərbaycanla sülh yolunda atdığı addımları müsbət qiymətləndirirəm. Addımlar var- və bu pis deyil.

İrəvan nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması ilə bağlı mövqeyini yumşaldır. Bununla belə, 9-10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata əsasən, Rusiyanın FTX zabitləri Azərbaycanın əsas hissəsi ilə Ermənistan ərazisindən Naxçıvana gedən nəqliyyat marşrutunda yerləşdirilməlidir. Lakin İrəvan buna qəti şəkildə qarşı çıxmağa başladı. Ermənistan sərhədçiləri və gömrükçüləri Azərbaycan nəqliyyatını yoxlasa, problemlər yarana bilər.

Ermənistan indi sadələşdirilmiş sərhəd və gömrük prosedurlarını təklif etməyə başlayıb, lakin müəyyən müddətdən sonra onlar daha da sərtləşə bilər. Düşünürəm ki, bu təklif Azərbaycan tərəfindən rədd ediləcək.

***- İrəvan həm də Azərbaycanı bir sıra fundamental bəndlər olmadan qısaldılmış sülh sazişi imzalamağa dəvət edir...***

- İrəvan Qərbi sülh sazişi imzalaması üçün Azərbaycana təzyiq göstərməyə sövq etməyə çalışır. Azərbaycan Ermənistandan sülh müqaviləsinin imzalanması şərtlərini yerinə yetirməsini tələb edir: onun Konstitusiyasına dəyişikliklər və ATƏT-in Minsk Qrupunun fəaliyyətinə hüquqi xitam verilməsi. İkinci tələbi yerinə yetirmək olduqca sadədir. Amma Ermənistan rəhbərliyi bu asan tələbi yerinə yetirmək istəmir, əksinə Qərbin COP29 ilə bağlı Azərbaycana təzyiqlərini davam etdirməsini, Azərbaycanı Ermənistanın maraqlarına uyğun manipulyasiya etməsini istəyir. Amma bunlar sadəcə Ermənistanın "istəkləri"dir. Qərb Azərbaycana təzyiq etsə belə, bu, İrəvanın maraqlarına deyil, yalnız öz maraqlarına uyğun olacaq.

Ermənistan iqtisadi mənfəət naminə Azərbaycanla tezliklə sülh müqaviləsi imzalamaq istəyir. Və bu razılaşma üçün əslində heç nə verməyəcək. Bundan əlavə, İrəvan hələ də Qarabağla bağlı siyasət üçün açıq "pəncərə" buraxmaq istəyir. Ermənistan hakimiyyəti Minsk qrupundan çıxmaq istəmir ki, ermənilər sonradan ora qayıtsınlar, üstəlik, İrəvanın şərtləri ilə.



Qərb Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzərində tələsə düşür- o, vasitəçi olmaq və Cənubi Qafqazda daimi rolunu təsdiqləmək istəyir. Göründüyü kimi, Qərb sülh sazişinə bəzi ziddiyyətlər örtmək istəyir ki, Ermənistan-Azərbaycan münaqişəsi faktiki olaraq nəhayət həll olunmayıb və hər zaman elə bir görüntü yaratsın ki, guya o, vəziyyəti "həll edir", amma reallıqda-bölgü və idarəçilik prinsipidir.

Qərb Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq istəyir və bunun üçün Ermənistanın xeyrinə sülh müqaviləsi bağlamaq lazımdır. Qərb erməni diasporuna jest etmək istəyir.

Erməni diasporu üçün isə Qarabağ məsələsi sabit ideyadır. Və bu ideya həmişə erməni icmasını birləşdirib. Və əgər Qarabağ problemi aradan qalxsa, o zaman diasporu birləşdirən qüvvə zəifləyir. Bu o deməkdir ki, indi erməni diasporunda siyasi nüfuzu və pulu olanlar onları itirəcək. Amma itirmək istəmirlər. Ona görə də Qarabağ problemini süni şəkildə qoruyub saxlamağa çalışırlar.

Eyni zamanda, Azərbaycan Ermənistandan sülh sazişinin bağlanması üçün Konstitusiyanın dəyişdirilməsi tələbinin yanındadır. Əgər Bakı İrəvanla qısaldılmış sülh sazişi imzalamağa razılaşarsa, bu, təkcə təhlükəsizlik və ərazi bütövlüyü məsələsində gələcək risklərin mövcudluğu deyil, həm də İkinci Qarabağ müharibəsinin qalibi və Cənubi Qafqazın aparıcı dövləti kimi mövqeyini itirməsi deməkdir. Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının saxlanması və İrəvan tərəfindən ATƏT-in Minsk qrupunun saxlanması Azərbaycana qarşı ərazi iddialarının qorunub saxlanması deməkdir.

Bu vəziyyətdə Azərbaycan gözləyəcək və Ermənistana təzyiq göstərəcək.

***- ABŞ-da keçirilən prezident seçkilərinin nəticəsi Ermənistan-Azərbaycan prosesinə necə təsir edə bilər?***

- Harris daha çox ermənipərəst hesab olunur, o, erməni icmasının mövqeyinin güclü olduğu Kaliforniyadandır; Görünür, onun erməni diasporu ilə əlaqələri var. Üstəlik, milli icmaların Demokrat Partiyası ilə Respublikaçılar Partiyasından daha sıx əlaqələri var. Digər tərəfdən, Tramp biznesmendir. Və ermənilərə münasibəti müsbətdir.

Seçkilərdən əvvəl həm Harris, həm də Tramp açıq şəkildə Azərbaycana yaraşmayan bəyanatlar səsləndirməklə ABŞ ermənilərinin dəstəyini almağa çalışırdılar.

Amma ümumilikdə onlar Cənubi Qafqaz üçün eyni mövqedədirlər, baxmayaraq ki, müəyyən dərəcədə Trampdan daha az problem gözləmək olar. Biz xatırlayırıq ki, Tramp İkinci Qarabağ Müharibəsi zamanı kömək edəcəyi, münaqişəni həll edəcəyi barədə bəyanatlar verməmişdi. Sonda bunlar sadəcə söz olaraq qaldı. İndi Trampın özü tezislər səsləndirir ki, ötən ilin sentyabrında Azərbaycanın antiterror tədbirləri zamanı demokratlar ermənilərə heç bir şəkildə kömək etməyiblər. Beləliklə, görünür, ABŞ-dakı seçkilərin nəticəsindən asılı olmayaraq, Amerikanın Cənubi Qafqazdakı siyasəti təxminən indi gördüyümüz kimi qalacaq.

***Tərcümə - Elçin Bayramlı***

# “Ona heç kəs nəzarət edə bilməyəcək"

## EKSPERT AYDINLIQ GƏTİRDİ





”Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) bütün rayonlarda, o cümlədən Bakıda rəsmi kəsim yerləri müəyyən edib. Həmin yerlərə də AQTA özü nəzarət edir”. Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib.

Eyyub Hüseynov sözlərinə belə davam edib: ”AQTA təklif edir ki, dönər ətlər oradan alınsın. Yəni o ətin mənbəyi olsun. Ümumiyyətlə, ətdən zəhərlənmələr az olur. Ət zəhərli hala keçəndə o iylənmiş və göyərmiş olur, pis qoxu verir. Buradakı ciddi məsələlərdən biri dönərxanalarda vəziyyəti yaxşılaşdırmaq istəyirlərsə, oradakı mayonezləri, digər inqrediyentlər, bugündən sabaha qalan dönərlər məsələsi önə çəkilməlidir.

Onu da qeyd edək ki, həmin qeyd olunmuş yerlərdən ət alanda oradan bir kağız alacaqlar, o kağızı divardan asacaqlar. Yəqin ki ondan sonra özləri bildikləri ətdən çəkəcəklər və ona da heç kəs nəzarət edə bilməyəcək. Çünki çox geniş bir şəbəkədir. Yəni bu da məsələni xilas etmir və çox effektli bir üsul deyil. Ona görə Azad İstehlakçılar Birliyi daha rasional üsullara əl atılmasını istəyir. Məsələn, ola bilər ki birdəfəlik şişlər olsun. İstehlakçı görsün ki, həmin şişə taxılan dönər lazımi müəssisədə yığılıb bu dönər artıq bura gətirilib və s. Ölkədə dönərləri o standartlara uyğun istehsal edən 2 müəssisə mövcuddur. Həmin müəssisələrdən həm də -40 dərəcə şok dondurma aparatları var. Yaxşı olar ki, müəssisələr dönərləri oradan alsınlar”.

*Ayşən Vəli*

### Tovuzda qadını avtomobil vurub öldürüb

Tovuzda qadını avtomobil vuraraq öldürüb. Hadisə ötən gün İbrahimhacılı kəndində qeydə alınıb. Kənd sakini Kimya Bağırova naməlum avtomobillə vurulub, nəticədə qadın hadisə yerində ölüb. Polis əməkdaşları tərəfindən hadisəni törətməkdə şübhəli bilinərək hadisə yerindən qaçan ”Toyota Auris” markalı avtomobilin sürücüsü Ramil Əkbərov müəyyən olunaraq saxlanılıb. Ona Cinayət Məcəlləsinin iki maddəsi ilə cinayət işi başlanılıb.




# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Daha bir veteran cüdoçumuz dünya çempionu oldu



Azərbaycanın daha bir veteran cüdoçusu Amerika Birləşmiş Ştatlarının Las-Veqas şəhərində keçirilən dünya çempionatında qızıl medal qazanıb. M1 yaş kateqoriyası üzrə 90 kiloqram çəki dərəcəsində çıxış edən Mərdan Qədirli bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 100 kiloqram çəkidə İntiqam Ələkbərov (M3) isə bürünc mükafata sahib çıxıb.

# “Azərbaycanda 80% zərərli çaylardır”

## DİYETOLOQ AYDINLIQ GƏTİRDİ



”Çox təəssüflər olsun ki, Azərbaycanda 80% zərərli çaylardır”. Bu sözləri SİA-ya açıqlamasında diyetoloq Ləman Süleymanova deyib. O bildirib ki, iş bazarında bundan istifadə edirlər: ”Çay plantasiyalarının salınması çox böyük məbləğ tələb edir. Ona görə də işbazlar daha yüngül üsuldan istifadə edirlər. Zərərli çayları satışa çıxarırlar.

Təmiz çayın orqanizmə çox böyük müsbət təsiri var. Onun tərkibi, yarpaqlarındakı taninin miqdarı ən azından 25-30% olmalıdır. Əsl təmiz dəmlənmiş qara çayı dəmləyəndə rəngi tündləşmir. Onun gözəlliyi odur ki, uzun müddət dəmlənsə belə yüngül rəng çaları olur. Beyin-qan dövranına yaxşı təsiri var, yüksək enerji verir, hətta baş ağrılarına belə yaxşı təsir göstərir. Əhvalımızı yaxşılaşdırır. Təmiz dəmlənmiş çaydan müəyyən yaraların sağalmasında da istifadə edilir. Çünki onun tərkibində xüsusi maddə var.

Çox təəssüflər olsun ki, ölkəmizdə cəmi 20% təmiz çay var. Çay plantasiyalarının salınması üçün külli miqdarda pul lazımdır. Təbii ki, buna getməzlər. Ona görə də həmin çayların tərkibində zərərli maddələr var. İnsan orqanizminə çox mənfi təsir göstərir. Bu çaylar qara ciyərə, mədəaltı vəzə, dərinin rənginə təsir göstərir. Əhalinin 40-45%-də öd daşı xəstəliyi var. Bu da zərərli çayların təsiridir. Çayxorların bəlkə də, 70%-də öd daşı xəstəliyi var. Həmin çayların dəmlənməsi, yarım saat saxlanması çox mənfi təsir göstərə bilər. Təmiz çay adı ilə bahalı çaylar satılır. Onların da cəmi 1-2 yarpağı təmiz olur. Qalanı zərərlidir. Əgər çay dəmlənən kimi tez tünd rəng alırsa, deməli zərərli maddənin izi var. Nə qədər tünd olarsa, bir o qədər zərərli maddə aktiv olur. Əhali diqqət etməlidir”.

*Söylü Ağazadə*


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700